

Milli azadlıqdan şirin nemət yoxdur!


YENi AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

28 aprel 2026-cı il, çərşənbə axşamı
№ 072 (7139)
Qiymәti 60 qəpik




# Zəriflik və fədakarlıq simvolu

Bax səh. 4



Bax səh. 4

# Cənubi Qafqazda sülh gündəliyinin əsas memarı



Bax səh. 2

# Azərbaycan-Çexiya: dostluqdan strateji tərəfdaşlığa...

## Milli Məclisin iclasında...

## Mərkəzi Seçki Komissiyasının yeni tərkibi formalaşdırılıb

Aprelin 27-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyə 11 məsələ daxil edilib. İclasda ilk olaraq Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında məsələyə baxılıb. Spiker Sahibə Qafarova bildirib ki, Mərkəzi Seçki Komissiyası üzvlərinin səlahiyyət müddəti başa çatıb və "Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinə əlavələr edilməsi haqqında" Konstitusiya Qanununa əsasən Milli Məclis komissiyanın yeni tərkibini formalaşdırmalıdır: "Seçki Məcəlləsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının 18 üzvünün namizədlikləri aşağıdakı qaydada təqdim edilməlidir: 6 nəfərin namizədlikləri Milli Məclisdə çoxluq təşkil edən siyasi partiya tərəfindən; 6 nəfərin namizədlikləri heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatlar tərəfindən; 6 nəfərin namizədlikləri isə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyalar tərəfindən. Bununla birlikdə, Seçki Məcəlləsinə əsasən, Mərkəzi Seçki Komissiyasının 3 nəfər əvəzedici üzvünün namizədlikləri də eyni qaydada Milli Məclisə təqdim edilməlidir. Artıq bütün lazımi prosedurlar icra olunmuş və namizədlər müəyyən edilib".

S.Qafarova qeyd edib ki, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı ilə Mərkəzi Seçki

Bax səh. 2



## Azərbaycan və Ukrayna iqtisadi əməkdaşlığın yeni hədəflərini müəyyənləşdirir

Bax səh. 4

## Ermənistanın monoetnikləşdirmə siyasəti...

Bax səh. 4

## Nyu-York şəhərinin merinə çağırış: Səhvinizi düzəldin!

Bax səh. 5

## Zəif təhlükəsizlik, yaxud...

Bax səh. 6

## Azərbaycan və ABŞ süni intellekt sahəsində əməkdaşlığı gücləndirir

"Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"na əsasən, xarici şirkətlərlə rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılması nəzərdə tutulur. Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının - süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, "ağıllı şəhər" həlləri və s. sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır. Bu ssenariyə əsasən, dünyanın nəhəng texnologiya şirkətlərinin ölkəmizə cəlb edilməsi üçün əlavə tədbirlərin görülməsi planlaşdırılır.

Azərbaycan süni zəka sahəsində ABŞ-ın iri korporasiyaları ilə əməkdaşlığı isə əsas hədəflər sırasında görür. Bu məqsədlə son dövrlərdə Azərbaycan və ABŞ-ın süni intellekt sahəsində ixtisaslaşmış qurumları arasında əməkdaşlıq artmaqdadır. "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"da bu istiqamətdə müştərək layihələrin icrası yer alıb ki, bu iqtisadi çərçivədə fəal qarşı-

Bax səh. 6



# Hörmüz müəmması davam edir...

Bax səh. 7

# Azərbaycan-Çexiya: dostluqdan strateji tərəfdaşlığa...





Aprelin 27-də Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişin rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Çexiyanın Baş naziri Andrey Babişi qarşılayıb.

***

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çex Respublikasının Baş naziri Andrey Babişlə təkbətək görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişlə geniş tərkibdə görüşü olub.

***

Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Çex Respublikasının Baş naziri Andrey Babişin şərəfinə rəsmi lanç verilib.





## İlham Əliyev: Çox fəal siyasi dialoqumuz var

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Baş naziri Andrey Babiş mətbuata bəyanatlarla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Sizi səmimiyyətlə salamlayıram.

Mən çox şadam ki, cənab Baş nazir bu gün bizim qonağımızdır. Biz üç ay bundan əvvəl Davosda görüşmüşük. Bu, bizim birinci görüşümüz olmuşdur və görüş çox məhsuldar keçmişdir, bir çox məsələlər ətrafında fikir mübadiləsi apardıq. Mən cənab Baş naziri Azərbaycana rəsmi səfərə dəvət etmişəm və şadam ki, bu gün cənab Baş nazir bu səfəri Azərbaycana həyata keçirir. Bu, iki ölkə arasındakı əlaqələrin dinamik şəkildə inkişafını göstərir. Bizim indi çox fəal siyasi dialoqumuz var. Bu gün bir çox məsələlər - həm regional, həm ikitərəfli, həm də daha qlobal xarakter daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İqtisadi sahədə görüləcək işlərlə bağlı konkret təkliflər var. Mən şadam ki, cənab Baş nazirlə birlikdə Azərbaycana Çexiyadan böyük qrup iş adamları gəlmişdir və bu gün keçiriləcək biznes-forumda həm yeni təmaslar qurulacaq, həm də mövcud layihələrlə bağlı fikir mübadiləsi aparılacaq. Bizim çox böyük ümidimiz ondan ibarətdir ki, ticarət dövriyyəmizi daha da yüksək səviyyəyə qaldıraq. Halbuki bu gün də ticarət dövriyyəmiz əhəmiyyətli dərəcədə artmışdır, 800 milyon dollardan çoxdur. Amma əgər biz ticarət dövriyyəsinin strukturuna baxsaq görərik ki, burada əsasən Azərbaycan neftinin ixracı gözə dəyir. Ona görə biz ticarət dövriyyəsinin daha tarazlı olmasını və strukturun təkmilləşdirilməsini arzulayırıq. Ümid edirəm ki, biz buna nail olacağıq. Çünki bu gün həm təkbətək görüşdə, həm heyətlərin iştirakı ilə apardığımız danışıqlarda bir çox konkret iqtisadi və sərmayə yönümlü layihələr müzakirə edilmişdir.

Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu, o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir. Təbii ki, bu gün biz bu barədə də danışdıq və bu sahədə gələcək əməkdaşlıq haqqında qərara gəldik. Biz buna daha geniş prizmadan yanaşırıq. Bu, sadəcə olaraq, ticarət əməliyyatları, enerji resurslarının ixracı əməliyyatları olmayacaq. Biz buna daha genişmiqyaslı, uzunmüddətli əməkdaşlıq kimi yanaşırıq.

Bizim ölkələrimiz arasında digər önəmli əməkdaşlıq sahəsi müdafiə sənayesi ilə bağlıdır. Burada da uzun müddət ərzində uğurlu əməkdaşlıq aparılır. Biz Çexiyadan bir çox hərbi təyinatlı məhsullar alırıq və indiki mərhələdə birgə istehsalla bağlı konkret layihələr üzərində danışıqlar gedir. Əminəm ki, bu sahə də çox genişmiqyaslı olacaq. Çünki Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına təmin edir və gələcəkdə bu sahədə böyük təcrübəsi olan Çexiya kimi ölkələrlə bizim müştərək işlərimiz xüsusi önəm daşıyır.

Bu gün bir çox digər sahələr ətrafında fikir mübadiləsi aparıldı. Hökumətlərarası Komissiyanın tezliklə tədbir keçirməsi, yenidən görüşməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Yəni bu gün bir daha Çexiya-Azərbaycan dostluğu, əməkdaşlığı öz təsdiqini tapır və bizim qarşımızda çox gözəl perspektivlər açılır.

Cənab Baş nazir, bir daha Azərbaycana xoş gəlmisiniz.

## Andrey Babiş: Azərbaycan Çex Respublikasında ən iri neft təchizatçısıdır

Sonra Çexiyanın Baş naziri bəyanatla çıxış etdi.

### Baş nazir Andrey Babişin bəyanatı

-Cənab Prezident.

Burada, iqamətgahınızda məni çox səmimiyyətlə qəbul etdiyinizə görə Sizə çox



minnətdaram. Bunu həqiqətən yüksək dəyərləndirirəm və mənim üçün böyük şərəfdir. Şadam ki, Davosdan sonra söhbətimizi davam etdiririk.

Burada bəyan edə bilərəm ki, Azərbaycan Çex Respublikasının strateji tərəfdaşıdır. Buna görə məmnunam ki, münasibətlərimiz də dostluğa söykənir. Aydındır ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Ukrayna Prezidenti Zelenski burada oldu, sonra Ciorcia Meloni bura səfər edəcək. Bu, sadəcə, gözəl ölkənizin əhəmiyyətini bir daha nümayiş etdirir.

Bu gün keçirdiyimiz görüş çox xüsusi oldu. Əlbəttə, Avropa bu gün enerji haqqında danışır, çünki neftayırma zavodlarına xammal tələb olunur, müxtəlif məhsulların istehsalı üçün təbii qaz lazımdır. Azərbaycan Çex Respublikasında ən iri neft təchizatçısıdır. İdxal edilən neftin 42 faizi Azərbaycandan daxil olur.

Cənab Prezident, biz buraya ÇES adlanan yarıdövlət şirkətimizlə gəlmişik və o, buradan qaz təchizatı ilə bağlı müqavilə imzalamaq istəyir. Siz əsasən hasilatı artıracaqsınız. ÇES şirkətinin baş icraçı direktoru buradadır. O, ən iri qazpaylayıcı şirkətlərdən biri olan ÇES ilə qaz təchizatı haqqında Sizinlə uzunmüddətli müqaviləni gələcəkdə imzalasa, təbii ki, çox məmnun olardı. Beləliklə, Azərbaycan neftdən əlavə, bu sahədə de-fakto bizim strateji tərəfdaşımız ola bilər.

Çox şadam ki, Siz Hökumətlərarası Komissiyanın iclasını keçirməyi təklif etmisiniz və düşünürəm ki, Sizin tərəfdən komissiyaya təyinatı artıq öyrənmişik. Bizim tərəfdən isə Baş nazirin birinci müavini Karel Havliçek olacaq və o, danışdığımız bütün məsələləri əhatə edəcək.

Əlbəttə ki, enerji bizim üçün olduqca vacibdir. Həmçinin vacibdir ki, Avropa anlasın: onun bəzi direktivləri, əslində, qeyri-Avropa təchizatçılarına zərər vurur və Avropada yalnız iki qaz təchizatçısının olması bizim üçün yaxşı deyil. Bir sözlə, biz həmin təchizatda maraqlıyıq və düşünürəm ki, uzunmüddətli müqavilələri imzalamağa hazırıq.

Ən mühüm Çex şirkətləri bizimlədir və bütövlükdə nümayəndə heyətimizdə 50 şirkət təmsil olunub. Əlbəttə ki, bizim Bakı Metropoliteni ilə müqavilənin imzalanmasında çox böyük marağımız var. "ŞKODA Daşımalar" ölkəmizin, bəlkə də ən iri iqtisadi "PPF Qrupu"nun bir hissəsidir. Həmin qrup digər şirkətlərlə yanaşı, birgə müəssisə qurmaq, Azərbaycanda istehsalata başlamaq, elm və tədqiqata sərmayə yatırmaq, universitetlərinizlə əməkdaşlıq etmək və təbii ki, Sizin insanlarınızla işləməyə hazırdır. Bilirik ki, qarşımızda Çin var, lakin biz çox bacarıqlıyıq və bunlar tarixən bizim qanımızdadır. Çexoslovakiya dünyada on ən çox sənayeləşmiş ölkələrdən biri olub və mən əminəm ki, biz bir kapital ola bilərdik. "Çekoslova Qrup" burada artıq fəaliyyət göstərir və əlbəttə ki, birgə müəssisə olaraq biz öz məhsullarımızı istehsal edirik.

"Aero Vodoxodı" şirkəti köhnəlmiş "L-39" təyyarələrinə de-fakto xidmət göstərir və təmir edir. Əlbəttə, biz yeni "L-39NG" təyyarəsini Sizə təqdim edirik və onu dəyərləndirsəniz, çox şad olardıq. "Kolt" şirkəti, sözün əsl mənasında, mühüm beynəlxalq şirkətdir və o, bütün dünyaya əla məhsullarını təchiz edir və şadıq ki, sizin polis və digər qüvvələr həmin məhsulları artıq tanıyır.

Bir sözlə, bu haqda biz bu gün biznes-forumda danışacağıq. Əlbəttə, başqa variantlarımız da var. Siz burada yükdaşımalarında fəal olan şirkətinizi qeyd etdiniz və biz onda təbii ki, maraqlıyıq. Bir faktı da qeyd etdik. Karlovı Varıda yeni layihə haqqında danışdıq və istərdik ki, hava limanı və onun uçuş zolağı genişlənsin. Beləliklə, bu, Çex Respublikasının sərmayə yatıracağımız yeni strateji əhəmiyyətə malik hava limanı ola bilərdi. Nəticədə ölkələrimiz arasında turizmə və inkişafa töhfə ola bilərdi. Bir sözlə, bu gün bir çox məsələləri müzakirə etdik.

Bütün bunlardan çox məmnunam. Çox yaxşı hisslər keçirirəm. Söhbətimiz xüsusi oldu və təbii ki, biz, ümumiyyətlə, dünyadakı vəziyyət haqqında danışdıq. Lakin bu gün buraya iqtisadi münasibətlərimizi sürətləndirməyə və intensivləşdirməyə gəlmişik. Həmin layihələrin sayı çoxdur. Biz hazırıq, sürətli və çevik olacağıq.

Ayırdığınız vaxta, ölkənizə səfər etmək imkanına görə çox minnətdaram. Əla qəbula görə təşəkkür edirəm. Bütün bunları, həqiqətən yüksək dəyərləndirirəm.

## Azərbaycan Şərqdən Qərbə, Şimaldan Cənuba təhlükəsiz və etibarlı tranziti təmin edir

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti və Çexiyanın Baş naziri tədbirdə çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti biznes-forumda çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Günortanız xeyir, xanımlar və cənablar, əziz qonaqlar.

Çox şadıq ki, Baş nazir Babişin rəsmi səfəri zamanı Çexiyanın böyük biznes nümayəndə heyəti onu müşayiət edir. Bu, biznesin birgə aparılmasında qarşılıqlı marağın çox aydın işarəsidir. Adətən, işgüzar dairələr öz qərarını layihənin gəlirliyi ilə bağlayır, lakin eyni zamanda, bir çox məsələlər hüquqi əsaslar və siyasi ölçülərdən asılı olur.

Beləliklə düşünürəm ki, bu gün Çexiya və Azərbaycan liderləri özlərinin işgüzar dairələrinə çox aydın mesaj göndərirlər: ikitərəfli ticarət, sərmayələrdə iştirak etmək, praktiki layihələrə nəzər salmaq və işbirliyinin qurulması yolları haqqında düşünmək vaxtıdır. Fikrimcə, bu gün yüksək səviyyədə qurulan siyasi təmaslar çox güclü siyasi bünövrəni təşkil edir.

Bu gün artıq qeyd olunduğu kimi, biz Baş nazir Babişlə üç ay əvvəl Davosda bir araya gəldik, indi isə burada, Qəbələdə görüşürük. Bir sözlə, bu, həqiqətən göstərir ki, hər iki tərəf müxtəlif sahələrdə tərəfdaşlığın möhkəmləndirilməsində çox maraqlıdır. Bu gün siyasi gündəliyin, o cümlədən regional və qlobal siyasi gündəliyin bir çox mühüm məsələləri ilə yanaşı, biz, həmçinin biznes imkanları, qarşılıqlı sərmayələr haqqında xeyli danışdıq. Biz konkret layihələrə toxunduq və birmənalı olaraq biznes-forumda bütün həmin məsələlər nəzərdən keçirilir.

Əlbəttə, hüquqi çərçivəyə əlavə, hər hansı sərmayədar üçün potensial sərmayələr sahəsində iqtisadi vəziyyət də vacibdir. Auditoriyanı məlumatlandıra bilərəm ki, Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti

davamı 3-cü səhifədə

# Azərbaycan-Çexiya: dostluqdan strateji tərəfdaşlığa...

əvvəli 2-ci səhifədə

sabitdir. Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir. Əslində, məzənnə dəyişməz olaraq qalır. 2017-ci ildən etibarən bir dollar 1,7 manat təşkil edir. Düşünürəm ki, bu, hər hansı yerli və xarici potensial sərmayədar üçün mühüm göstəricidir. Son iyirmi il ərzində Azərbaycana sərmayə kimi 350 milyard ABŞ dolları yatırılmışdır və onun demək olar ki, yarısı xarici




tərəfdaşlardan daxil olmuşdur. Bir sözlə, müsbət sərmayə iqlimi, əlbəttə ki, əsas hədəf idi. Çünki aydındır ki, sərmayələr olmasa, heç bir iqtisadiyyat inkişaf edə bilməz, xüsusilə də beynəlxalq gündəliyin qarışıq vaxtlarında.

Biz borcalmanı azaldaraq maliyyə sistemimizin gücləndirilməsinə nail olduq. Əslində, biz xarici borcu aşağı salmaq üçün bir neçə il əvvəl əsas borcalmaları dayandırdıq. Hazırda biz yenidən borcalmaya başladıq, çünki indi xarici borc ÜDM-in cəmi 6,1 faizini təşkil edir.

İnfrastruktur layihələri. Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş sahələrində yenidənqurmaya gəldikdə, görüləsi işlər çoxdur. Beləliklə, biz Dünya Bankı, AYİB, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və Sərmayə Bankı və digər aparıcı maliyyə təsisatları ilə artıq fəal işə başlamışıq. Məqsəd qarşımızda olan mühüm layihələrin icrasında daha çox dinamika yaratmaqdır. Beynəlxalq təcrübəyə gəldikdə, biz, həmçinin qeyd edə bilərik ki, “Moody’s” Reytinq Agentliyi Azərbaycanın kredit reytinqini müsbət proqnozlu sərmayə reytinqi səviyyəsinə qaldırıb. Düşünürəm ki, bütün bunlar Azərbaycana pul vəsaitlərinin qoyulması üçün münasib məkan olması barədə investorlara yaxşı işarədir. Birmənalı olaraq, siyasi sabitlik, sosial sabitlik, təhlükəsizlik, yəni ölkədə işgüzar fəaliyyətlə məşğul olmaq qərarını qəbul edən sərmayədara ilk növbədə lazım olan hər meyar var.

İkitərəfli əməkdaşlığın perspektivlərinə gəldikdə, əvvəlcə bildirmək istərdim ki, biz Avropa İttifaqından ilk kənar ölkəyə - Azərbaycana səfər etdiyinə görə Baş nazir Babişə çox minnətdarıq. Biz bunu dostluq, hörmət əlaməti kimi görürük və bu, həmçinin göstərir ki, həqiqətən hər iki ölkənin bir-birinə ehtiyacı var. Biz Azərbaycandan ardı kəsilməyən neft təchizatı ilə enerji sahəsində artıq yaxşı tərəfdaşlıq qurmuşuq. Bu gün biz təbii qaz sahəsində əməkdaşlığın başlanılması imkanlarını geniş şəkildə müzakirə etdik. Neft, qaz, neftayırma məhsulları, neft-kimya, gübrələr, elektrik enerji, süni zəka, məlumat mərkəzləri böyük potensial əsasında ikitərəfli qaydada hər iki ölkənin fəal işlədiyi bütün digər sahələri əhatə edəcək strateji əməkdaşlığın qurulması məqsədilə həmin məsələlərə geniş perspektivdən nəzər saldıq.

Nəticə verən sahələrdən biri müdafiə sənayesidir. Çexiya müdafiə sənayesi sahəsində özünün çox müasir və etibarlı məhsulları ilə xeyli tanınır. Biz Çexiyanın şirkətləri ilə artıq bir neçə müqavilə imzalamışıq. Hazırda fəaliyyət dairəsini artırmağı və birgə istehsalata başlamağı planlaşdırırıq. Elə danışdığımız zaman heyətlərimiz bunun üzərində işləyir. Bu, istənilən ölkə üçün, xüsusən də müharibə və münaqişələrin yağışdan sonra göbələk kimi artdığı dövrdə çox mühüm sahədir. Hər bir ölkə öz suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını müdafiə etməyə hazır olmalıdır. Bu nöqteyi-nəzərdən düşünürəm ki, biz böyük artım potensialı olan bu sahədə əməkdaşlıq üçün çox güclü əsas qoyduq.

Həmçinin bu gün cənab Baş nazirlə birgə qəbul etdiyimiz qərarlar arasında Birgə İqtisadi Komissiyanın həmsədrliyinin səviyyəsinin nazirlər səviyyəsinə qaldırılması və Birgə Hökumətlərarası Komissiyasının iclasının təşkili də var idi. Yaxşı olardı ki, bu iclas bu il keçirilsin. Birgə Hökumətlərarası Komissiyanın iclası sonuncu dəfə 3 il bundan əvvəl keçirilmişdir. Beləliklə, bir çox məsələlər üzərində iş gedir. Biz bu məsələlərin gedişi barədə xəbərdar edilməliyik, informasiya mübadiləsi aparılmalıdır, biznes ictimaiyyəti istiqamətləndirilməlidir və onlar üçün daha yaxşı mühit təmin edilməlidir.

Ölkəmiz üçün prioritet sayılan sahələrdə Azərbaycana yatırıla biləcək potensial investisiyalara gəldikdə, birinci sahə əlbəttə ki, sənayenin inkişafıdır və birgə istehsaldır. Biz nəqliyyat infrastrukturunun aparıcı istehsalçıları ilə Azərbaycanda birgə müəssisə yaratmaq məqsədilə Çexiyanın çox məşhur olan nəqliyyat sektorunu geniş müzakirə etdik.

Biz Azərbaycanda böyük potensialı olan bərpaolunan enerji sahəsini fəal şəkildə inkişaf etdiririk. Planımız 2032-ci ilə qədər Günəş, külək və hidroelektrik enerjidən 8 giqavat əldə etməkdir və bu, təkcə planlara yox, artıq imzalanmış müqavilələrə əsaslanır. Bunun üçün çoxlu sahə işləri aparılmalıdır. Əlbəttə ki, bu, sahələrdən biri ola bilər.

Bağlantı. Bu gün biz Şərq-Qərb nəqliyyat dəhlizinə geniş sərmayə yatırırıq və bu gün ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlərə görə bu dəhlizə heç vaxt olmadığı kimi ehtiyac var. Beləliklə, Azərbaycan Şərqdən Qərbə və əks istiqamətdə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edir. Biz hər iki dəhlizin kəsişməsində yerləşirik və son illərdə infrastruktura geniş investisiyalar ilə biz bir çox ölkələrə lazım olan bu böyük aktivi artıq yaratmışıq.

Turizm, əlbəttə ki, tərəfdaşlığın önəmli sahəsi ola bilər. Hər iki ölkənin zəngin tarixi, mədəniyyəti, abidələri, təbiəti var. Yeri gəlmişkən, bugünkü forum təkcə Azərbaycanın deyil, daha geniş coğrafiyanın qədim parçası olan bir yerdə keçirilir. Qəbələ əsrlər boyu qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olub. Bu gün deyərdim ki, Azərbaycanın turizm paytaxtıdır. Biz əlbəttə ki, əlaqələr, xalqlararası təmaslar, mövcud olan, lakin planlarımızı nəzərə alaraq artırmalı olduğumuz hava yolu əlaqəsi üzərində çalışmalıyıq.

Biz, həmçinin Azərbaycanın regionda artıq önəmli rol oynadığı hava ilə yükdaşımaları sahəsində potensial əməkdaşlığı müzakirə etdik. Bir çox digər sahələr də var. Əlbəttə ki, qeydlərimizdə bütün məsələləri əhatə etmək mümkün deyil. Lakin mən əminəm ki, biznes dairələri bu gün biznesin qurulması və dostyana mühitin yaradılması üzrə potensiala dair aydın anlayışla bir araya gəliblər. Ümid edirəm ki, Çexiya və Azərbaycandan olan biznes dairələrinin nümayəndələri həm də yaxşı dost olacaqlar. Bu dostluğun təməli bu gün qoyulacaq və o, davam edəcəkdir.

Bir daha, cənab Baş nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz.

x x x

Sonra Çexiyanın Baş naziri biznes-forumda çıxış etdi.

### Baş nazir Andrey Babişin çıxışı

-Hörmətli cənab Prezident Əliyev, nazir Cabbarov, hörmətli qonaqlar, xanımlar və cənablar.

Ən dinamik ölkələrdən biri olan Odlar diyarı Azərbaycanla əlaqələrin gücləndirilməsinə və yeni üfüqlərin kəşfinə həsr olunmuş Çexiya-Azərbaycan biznes-forumu üçün burada, Qəbələdə olmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan əlbəttə ki, bizim üçün, Çex Respublikası üçün strateji tərəfdaşdır. Buna görə də Avropa İttifaqına üzv olmayan ölkələr arasında ilk səfərimi məhz buraya edirəm. Biz cənab Prezidentlə Davosda görüşmüşdük, bu səfəri razılaşdırmışdıq və burada olmağımdan şadam və şərəf hissi keçirirəm. Eyni zamanda, Sizi Praqada qəbul etmək üçün dəvəti də çatdırıram.

Ölkələrimiz arasında Birgə İqtisadi Komissiyanın təşkil edilməsi ilə bağlı ideya var və bizim tərəfdən bu komissiyaya birinci vitse-premyer cənab Havliçik rəhbərlik edəcəkdir. Hesab edirəm ki, bu komissiya işinə mümkün qədər tez - bu il başlamalıdır ki, biz bütün bu layihələrdə irəli gedə biləcək.

Enerjiyə gəldikdə, biz Avropa İttifaqında enerjidən danışırıq. Çex Respublikası bütün liderlərə, komissiyaya və Avropa İttifaqı Şurasına dörd məktub göndərib. Bizim problemimiz var. Bizim problemimiz yaşıl razılaşma ilə bağlıdır və bu məsələ bugünkü durumundan fərqli olaraq tamamlanmaq üzrədir. Bununla da “ETS1”, “ETS2” ilə Avropa sənayesi məhv edilir, Avropanın və Avropa vətəndaşlarının həyatlarına zərbə vurulur. İndi isə Hörmüz boğazı ilə bağlı problem yaşayırıq. İndi Avropada xam neft və qaz məsələsi üzə çıxır. Biz buraya enerji ilə bağlı danışıqlar aparmaq üçün də gəlmişik, çünki Azərbaycan Çex Respublikasına xam neftin ən böyük təchizatçısıdır, 42 faiz təchiz olunur. Siz bir nömrəli təchizatçımızsınız.

Biz buraya qazın ən böyük paylayıcısı olan ÇES şirkəti ilə gəlmişik və əlbəttə ki, uzunmüddətli əməkdaşlığı, uzunmüddətli müqaviləni, ikitərəfli investisiyaları müzakirə etməyə çox şad olardıq. Siz yeni qaz yataqlarını kəşf edəcəksiniz və əlbəttə ki, bizim bu məsələyə çox böyük marağımız var. Hər ikimiz etibarlı tərəfdaş olduğumuzu bilirik və bizim əməkdaşlığımız qarşılıqlı hörmətə və etibara əsaslanır. 2025-ci ildən indiyədək ticarət dövriyyəsi 1,75 milyard avro təşkil etmişdir və bu, əsasən xam neftin təchizinə görə olmuşdur. Lakin gələcəkdə şaxələndirmə üçün böyük potensial mövcuddur. Məhz buna görə, cənab Prezident, çox önəmli 50 Çex şirkətinin nümayəndələri ilə buraya təşrif buyurmuşam və Sizi bu gün burada bizimlə bir yerdə olan bu konkret şirkətlərlə tanış etmək istəyirəm. Biz enerji üzrə həllərin tam spektrini təklif edən kurasiyamızda olan bir qrup ixtisaslaşmış şirkətləri bir araya gətirmişik. Bu gün burada təmsil olunmuş şirkətlər arasında ÇES, “Inco Engineering”, “Provico”, “TTC Marconi”, “ZPA Pecky”, “ZVVZ Engineering” və “ZDAS” var.

İcazə verin, həmçinin müdafiə sektorunda fəaliyyət göstərən bir qrup şirkəti Sizə təqdim edim və Siz artıq onlarla tanışsınız. Çex Respublikası 1939-cü ildə dünyada hərbi avadanlıq və silahların ən böyük istehsalçısı idi. Burada Çexiya və Slovakiya qrupu da təmsil olunur, birgə müəssisələr, investisiyalar, - “L-39NG Aero Vodochody”, “CSG Aerospace”, “Ceska Zbrojovka”, “Colt”, “Excalibur International”, “Explosia”, “VOP CZ”, “Omnipol” və “Livance SRO Meteopress”, - biz bu layihələri müzakirə etmişik. Bütün bu şirkətlər Sizin xüsusi ehtiyaclarınıza uyğun hərtərəfli çeşiddə məhsul və inteqrasiya olunmuş həlləri təklif edirlər. Nümayəndə heyətimiz müasir nəqliyyat mühəndisliyində ən yaxşı həlləri təcəssüm etdirir. Bu şirkətlər qatarlar və dəmir yolu texnologiyasından tutmuş, qabaqcıl nəqliyyatı idarəetmə sistemi və “ağıllı” infrastruktura qədər hər şeyi təmin edirlər. Onlar bizə daha da sürətli, təhlükəsiz və dayanıqlı nəqliyyat şəbəkəsini qurmağa kömək etmək üçün buradadırlar. Əlbəttə ki, “SKODA Transportation” və Çexiyada çox önəmli və iqtisadi qrup olan “PPF”in üzvü olan “SKODA” şirkətlər qrupunun Bakı metrosunda keçirilən tenderdə uğur qazanması bizi çox şad edərdi. Həmçinin “AZD Praha”, “CZ Loco”, “Daco” və “Tatra Export” şirkətləri də burada təmsil olunur. Burada olan bütün bu şirkətlər çox konkret layihələr təqdim ediblər və mən əminəm ki, bizimlə işbirliyi qursanız, bundan çox məmnun qalarsınız.

Həmçinin geologiya və mədən sənayesi sektorunu təmsil edən ixtisaslaşmış “Ceska geologicka sluzba və Frydlantske strojirny”, “TR”, “SRO” şirkətlərini də təqdim etmək mənim üçün şərəfdir. Bu şirkətlər suyun idarəedilməsi və dayanıqlılıq məsələlərində ixtisaslaşmış şirkətlərdir. Burada “MEGA”, “Chemoprojekt” və maliyyə sektorunda fəaliyyət göstərən “Czech Export Bank”, “Exportni garancni a pojistovaci spolecnost”, analitik texnologiyalar və laborator şəbəkə xidmətləri üzrə fəaliyyət göstərən “JTH Holding” şirkətləri də var.

Bu gün müzakirələrimizin təbii ki, sənaye və iqtisadi artıma fokuslanmasına baxmayaraq, biz tərəfdaşlığın texnologiya və ticarətdən daha dərin olduğunu hesab edərək, onun, eyni zamanda, mədəniyyəti, təhsili və sosial məsuliyyəti əhatə etdiyini düşünürük. Bu kontekstdə musiqi alətləri üzrə ixtisaslaşmış və ümumdünya miqyasında tanınmış şirkət olan “Petrov”u salamlamaq istəyirəm. Bundan əlavə çox vacib məsələni də Sizin diqqətinizə çatdırmaqdan fərəh hissi keçirirəm. Burada təmsil olunan şirkət və təşkilatlardan bəziləri sosial tərəqqiyə, xüsusilə qadınların cəmiyyətdə və peşəkar sahədə roluna dərindən bağlıdırlar. Bunu nəzərə alaraq, mən Qadın Sahibkarlarının və Menecerlərinin Çexoslovak Moraviya Assosiasiyası olan “FCEM”i salamlamağa çox şadam. Bu şirkətlər müvafiq sənayelərin zirvəsini təmsil edərək onilliklər ərzində davam edən Avropa ənənələrini bu gün qlobal bazarları müəyyənləşdirən müasir innovasiyalarla birləşdiriblər. Beləliklə, şirkətlərin siyahısı budur, çox böyük maraq var idi və biz yəqin ki, siyahıya 100 şirkəti əlavə edə bilərdik. Lakin, cənab Prezident, biz düşündük ki, müəyyən seçimlər etməliyik. Beləliklə, bu siyahı Çex şirkətlərinin gözəl ölkənizə və sizinlə iş qurmağa olan marağını əks etdirir.

İndi isə şirkətləri öz təklifləri ilə çıxış etməyə dəvət edirəm. Hesab edirəm ki, bugünkü forum, əlbəttə ki, bizim əməkdaşlığımızı intensivləşdirərək irəli aparacaq və bu bizim üçün çox önəmlidir. Çünki biz əminik ki, şirkətlərimiz əla məhsul və xidmətləri təklif edirlər. Biz birgə müəssisə yaratmağa, insanlarınızı işə götürməyə, tədqiqat və araşdırmaya investisiya yatırmağa, universitetlərlə əməkdaşlıq etməyə hazırıq və ölkəmizdə böyük potensial mövcuddur.

Çox sağ olun. Mən Sizi Praqada qəbul etməyi səbirsizliklə gözləyirəm və bundan əvvəl ümid edirəm ki, nümayəndələrimiz bu layihələri irəli aparacaq və ticarət dövriyyəmiz xeyli artacaq.

Çox sağ olun, cənab Prezident.

# Azərbaycan və Ukrayna iqtisadi əməkdaşlığın yeni hədəflərini müəyyənləşdirir



Azərbaycan və Ukrayna əlaqələri çoxəsrlik tarixə köklərə söykənir, hər iki ölkənin neçə yüzilliklər əvvəl möhkəm ənənəvi səmimi dostluq münasibətləri olub. Hər iki ölkə güclü regional tərəfdaş kimi beynəlxalq təşkilatlarda da birgə mövqe sərgiləyərək sıx əməkdaşlıq edir. BMT, Avropa İttifaqı, ATƏT, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq siyasi və iqtisadi ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. İki ölkə arasında Birgə Bəyannamənin, eləcə də strateji əməkdaşlığın inkişafına dair siyasi sənədlərin imzalanması iqtisadi-ticari, energetika və investisiya sahələrində əlaqələrin yüksək zirvəyə çatmasında mühüm rol oynayıb.

Volodimir Zelenskinin aprelin 25-də Azərbaycana səfəri çərçivəsində müzakirə olunan mühüm məsələlər iki ölkə arasında iqtisadi münasibətlərin inkişaf perspektivlərini müəyyən etməklə, dəyişən geosiyasi reallıqlar fonunda Bakı-Kiyev əməkdaşlığını möhkəmləndirməyə xidmət edir. Dövlət başçılarının mətbuata verdiyi bəyanatlarda da səsləndirildiyi kimi iqtisadi təmaslar yüksək səviyyədədir və müxtəlif platformalarda irəliləyən bağlantılar dinamikanın daha da artması üçün yaxşı fürsətlər yaradır.

**Hədəf iqtisadi mübadiləni 1 milyard dollara çatdırmaqdır**

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, çox güclü təməl üzərində inkişaf edən Azərbaycan-Ukrayna əlaqələri iqtisasi təmaslar üçün möhkəm zəmin yaradıb, iqtisadi-ticari-investisiya bağlantıları son illərdə yüksək səviyyəyə qalxıb. Tərəflər arasında əmtəə mübadiləsinin həcmi keçmiş sovet ölkələri içərisində Rusiyadan sonra ikinci yerdə dayanır. 2021-ci ildə iki ölkə arasında iqtisadi dövriyyə 920 milyon dolları ötüb və artım tempi 1 milyarda yaxınlaşmaqda idi. Müharibə səbəbindən Ukraynanın bütün ticari tərəfdaşları ilə mal mübadilələrində azalmanın qeydə alınması Azərbaycanla proqnozlaşdırlan rekord rəqəmə çatmağı məhdudlaşdırıb. Ümumiyyətlə, müharibə nəticəsində Ukraynaının son 4 ildə xarici iqtisadi dövriyyəsi 60 faizdən çox azalaraq 2025-ci ildə 68 milyard dollardan 40 milyard dollara düşüb. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycanla ticari mübadilənin dinamikası sabit saxlanılıb və ən yaxşı ticari əməliyyatlar iki ölkə arasında qeydə alınıb.  Hətta son 2 ildə Azərbaycan ilə Ukrayna arasındakı ticarət dövriyəsi 31 faiz artıb və tərəflər yaxın illərdə hədəflədiyi rəqəmə - 1 milyard dollara çatmağa qadirdir.

**Ukraynanın enerji təhlükəsizliyində etibarlı dövlət**

SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, hər zaman kritik dövrlərdə bu ölkəyə öz dəstəyini əsirgəməyib. Azərbaycanın Dövlət Neft Şirkəti müharibə başlayanda isə əsil humanizm nümayiş etdirirək Ukraynanın yanacaq-enerji sektorunda dünya bazar qiymətlərindən qat-qat ucuz yanacaq təchizatı həyata keçirdi. 2023-cü ildə Avropada qaz və yanacağın qiyməti 4-5 dəfə bahalaşaraq rekord həddə çatanda Ukraynanı humanitar xarakterli yanacaq məhsulları ilə təmin etdi, “SOCAR Energy Ukraine” təcili tibbi yardım maşınları və Ukrayna Dövlət Fövqəladə Hallar Xidməti üçün pulsuz olaraq 200 min litrdən çox yanacaq hədiyyə verdi.

2025-ci ildə Rusiya ilə Ukrayna arasındakı qaz tranzitinə dair dövlətlərarası sazişin hüquqi qüvvəsi başa çatmasından sonra bu ölkədə qaz tədarükünün tamamilə qapadılması Ukraynanın mövcud qaz şəbəkələri infrastrukturuna və qaz anbarlarına mənfi təsirlər göstərməyə başladı. Çünki qaz ekosistemi uzun müddət yanacaq olmadığı halda infrastrukturun sıradan çıxması təhlükəsi meydana çıxır. “Naftoqaz” şirkətinin Azərbaycana qaz nəqlinə dair xahişi rəsmi Bakı tərəfindən anlayışla qarşılandı və SOCAR Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə ixracı həyata keçirdi. Nəticədə Ukraynanın enerji infrastrukturunu sıradan çıxmaqdan xilas edildi. Zelenskini etiraf etdiyi kimi çox ağır bir dövrdə Azərbaycandan 11 yardım paketinin alınması Ukrayna üçün çox vacib rol oynadı. Azərbaycan bu nümunəvi addımı ilə bir daha sübut edir ki, regionda əsil enerji əməkdaşlığı və dostluğu halqası yaradan qüdrətli dövlətdir.

**“SOCAR Ukraine” şirkəti Ukraynada ən çox vergi ödəyən şirkətdir**

SOCAR Ukraynadakı yanacaq məntəqələri və neft bazalarından əldə etdiyi gəlirlərinin böyük bir qismini də bu ölkənin iqtisadiyyatının inkişafına yönəldir, davamlı sərmayələr qoyur. “SOCAR Energy Ukraine” şirkəti tərəfindən Ukrayna iqtisadiyyatına indiyə qədər 350 milyon dollardan çox investisiya yatırılıb. Eyni zamanda, bu ölkənin büdcəsinə hər il on milyon dollarla vergilər daxil olur ki, bu da Ukrayna xalqının iqtisadi və sosial rifahına sərf edilir.

Hazırda “SOCAR Ukraine” şirkəti Ukraynada ən çox vergi ödəyən şirkətdir. Eləcə də Azərbaycan şirkəti bu ölkədə sosial layihələrə milyon dollarla ölçülən sosial layihələri maliyyələşdirir. Azərbaycanın Energetika Nazirliyinin göndərdiyi elektrik avadanlığının dəyəri 7,6 milyon dollardan çox olub. Bundan əlavə, Azərbaycan dərman və ərzaq da daxil olmaqla 2 min tondan çox humanitar yardım göndərib. Hesabladıqda, bunlar MDB regionundakı cəmi ölkələrin birgə yardımınının məbləğindən də çoxdur. Bundan başqa, Azərbaycan Ukraynaya neft, aviasiya yanacağı, kimyəvi sənaye məhsulları, gübrə və s. məhsullar ixrac edir. Ələlxüsus da bu ölkənin təyyarə parkının yanacaq resursları Azərbaycanın ixracatı hesabına təmin olunur.

**İkitərəfli və regional əməkdaşlıqda yeni mərhələ**

Azərbaycan və Ukrayna əməkdaşlıq potensialına uyğun olaraq sənaye, aqrar, turizm, əczaçılıq, maşınqayırma, energetika, hərbi sənaye kompleksi daxil olmaqla, yeni ticari hədəflər müəyyən edib, eyni zamanda, texniki və infrastruktur baxımından yaxşı imkanlar var. Səfər zamanı dövlət başçıları səviyyəsində müzakirə olunan hərbi-texniki əməkdaşlığın böyük perspektivləri var. Həm Azərbaycanda, həm Ukraynada hərbi sənaye kompleksi inkişaf edir və burada birgə istehsalla bağlı, ümumiyyətlə, sənaye sahəsində birgə istehsalla bağlı yaxşı imkanlara malikdir.

Yeni imzalanmış 6 sənədə ticarət mübadilələrinin və investisiya qoyuluşlarının artırılması, ixracın təşviqi, iki ölkənin dövlət şirkətləri və biznes icmaları arasında müştərək layihələrin həyata keçirilməsi, sənaye və kommunikasiya bağlantılarının möhkəmləndirilməsi baxımından mühüm rol oynayacaq, ikitərəfli qarşılıqlı və regional əməkdaşlıqda yeni mərhələ açacaq.

Beləliklə, Ukrayna Prezidentinin Azərbaycana səfəri ölkələr arasındakı iqtisadi münasibətlərin daha da dərinləşməsinə töhfə verəcək.

***E.CƏFƏRLİ***

# Cənubi Qafqazda sülh gündəliyinin əsas memarı

**Prezident İlham Əliyevin “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməsi Onun sülh naminə ardıcıl fəaliyyətinin beynəlxalq səviyyədə yüksək dəyərləndirilməsinin növbəti təsdiqidir**

Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti milli səviyyədə olduğu kimi, beynəlxalq birlik tərəfindən də təqdir olunur. Onun daha bir beynəlxalq təltifə - “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməsi bunun növbəti ifadəsidir.



Prezident İlham Əliyev mükafatın təqdimolunma mərasiminin iştirakçılarına ünvanladığı müraciətində Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməsi ilə əlaqədar Gernika-Lumo və Pforshaym şəhər şuralarına, Gernika Sülh Muzeyinə, Mədəniyyət evinə və “Gernika Qoqoratuz” Sülh Araşdırmaları Mərkəzinə dərin minnətdarlığını ifadə edib. Dövlətimizin başçısı bunun həm də gələcək fəaliyyət üçün böyük məsuliyyət olduğunu bildirərək vurğulayıb: “Sülh və Barışıq üçün Gernika mükafatı” yalnız artıq əldə olunmuş nailiyyətlərin tanınması deyil, həm də beynəlxalq birliyin ortaq rifahı, sülh naminə atılacaq gələcək addımlar baxımından mühüm ruhlandırıcı stimul və məsuliyyətdir”.

“Sülh və Barışıq üçün Gernika mükafatı” 1937-ci il 26 aprel tarixində İspaniyanın

### Dinc əhaliyə qarşı amansız cinayət

Bask bölgəsinin Gernika şəhərində dinc əhaliyə qarşı törədilən bombardmanlarla əlaqədar təsis edilib. Havadan endirilən aramsız zərbələr nəticəsində şəhərin yüzlərlə sakini həyatını itirib, çoxlu sayda insan bu və ya digər dərəcədə xəsarət alıb. 89 il əvvəl Gernikada dinc əhaliyə qarşı törədilmiş amansız cinayət ötən əsrin ən dəhşətli və qanlı səhifələrdən biridir.

Dinc əhaliyə qarşı törədilən cinayətlər hər zaman qınanılıb və bu gün də qınanılmaqdadır. Təəssüf doğuran haldır ki, Gernika kimi faciələr dünyanın ayrı-ayrı regionlarında bu günümüzdə də baş verir. Qəzzada, Yaxın Şərqdə, Şərqi Avropada alovlanan amansız müharibələr aralarında uşaqlar, qadınlar, qocalar da olmaqla yüz minlərlə insanın həyatına son qoyub. Bu gün milyonlarla dinc sakin ev-eşikləri dağıdıldığına görə ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşayır və ən adi ehtiyacların belə qarşılaya bilmir.

Dinc əhaliyə qarşı bombardmanların, digər müharibə cinayətlərinin nə demək olduğunu Azərbaycan xalqı da yaxşı bilir. Ölkəmiz ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən havadarları tərəfindən dəstəklənən Ermənistanın işğalçılıq siyasətinə məruz qalıb. Bu işğal nəticəsində 1 milyondan artıq soydaşımız təxminən otuz il ərzində vaqonlarda, çadırlarda, necəgəldi tikililərdə yaşamaq məcburiyyətində qalıblar. Birinci və İkinci Qarabağ müharibələrində hətta təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimiz belə raket atəşlərinə tutulub. Bu kimi faciələri yaşayan bir xalq olaraq biz dinc əhaliyə qarşı törədilən hərbi cinayətləri qətiyyətlə pisləyirik. “Hesab edirəm ki, dinc insanlara qarşı istənilən cinayət bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlir. Gernika şəhərinin bu ağrı-acısını bölüşür, qurbanların əziz xatirəsini dərin ehtiramla yad edirəm.

Gernika şəhərinin tarixindən irəli gələn sülh və barışıq mesajı bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Müharibələrin acı nəticələrini yaşamış xalqların xatirəsi və təcrübəsi gələcək nəsillərin daha sabit və təhlükəsiz dünyada yaşaması üçün mühüm dərs olmalıdır”, - deyə Prezident İlham Əliyev bildirib.

### Regionda sülh, barışıq və qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulub

“Sülh və Barışıq üçün Gernika mükafatı” dünyada sülhü təşviq edir. Belə bir mükafatın təsis edilməsi beynəlxalq səviyyədə müharibələrə, dinc əhalinin amansız bombardmanlara məruz qalmasına son qoyulmasının zəruriliyinə bir çağırışdır. Azərbaycan Prezidenti İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”ndan sonra “Sülh və Barışıq üçün Gernika mükafatı”na layiq görülməsi dövlətimizin başçısının sülh naminə ardıcıl fəaliyyətinin beynəlxalq səviyyədə yüksək dəyərləndirilməsinin əyani təsdiqidir. Artıq hamı tərəfindən qəbul olunur ki, təxminən otuz il ərzində müharibə riskləri ilə üz-üzə qalan Cənubi Qafqazda sülh gündəliyinin əsas memarı məhz Prezident İlham Əliyevdir. O, müharibə başa çatdıqdan sonra qalib Azərbaycanın yaratdığı yeni reallıqları regionda sülhə nail olmaq üçün real zəmin kimi dəyərləndirdi və bu istiqamətdə vaxt itirmədən məqsədyönlü fəaliyyətlərə başladı. Məhz İlham Əliyevin siyasi qətiyyəti və fəal diplomatiyası sayəsində sülhyaratma prosesində böyük yol keçilib. Bu yolda ötən il avqustun 8-də Vaşinqtonda , Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, Ermənistan liderlərinin iştirakı və Donald Trampın şahidliyi ilə mühüm razılaşmaların əldə olunması, yekun sülh sazişinin xarici işlər nazirləri tərəfindən paraflanması, Birgə Bəyannamənin qəbul edilməsi böyük nailiyyətdir. Artıq onilliklər ərzində Azərbaycana qarşı işğalçılıq siyasəti aparmış Ermənistan Dağlıq Qarabağ da daxil olmaqla ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir, həmçinin böyük regional və qlobal önəm daşıyan kommunikasiyaların blokdan çıxarılması razılaşdırılıb. Dövlətimizin başçısının bildirdiyi kimi, bununla da üç onillik ərzində davam edən münaqişə tamamilə sona çatmış, xalqlarımız üçün sülhün, barışığın, qarşılıqlı tərəfdaşlıq dövrünün əsası qoyulmuşdur.

Vaşinqton görüşündən sonra regionda real olaraq sülh mövcuddur, atəş səsləri eşidilmir, insanlar həyatlarını itirmirlər. Eyni zamanda, Azərbaycan sülhə töhfə vermək naminə öz ərazisindən Ermənistana tranzit keçidlərini təmin edir. Eləcə də ölkəmizdən Ermənistana enerji məhsullarının göndərilməsi təmin edilir. Bundan başqa, son aylarda etimad quruculuğu prosesi çərçivəsində hər iki ölkənin vətəndaş cəmiyyəti təsisatlarının nümayəndələri İrəvanda və Bakıda bir neçə dəfə görüşüblər. Ermənistan konstitusiyasına müvafiq dəyişiklik edildikdən sonra yekun sülh sazişinin imzalanmasında hər hansı bir maneə qalmayacaq. “Azərbaycanın və Ermənistanın nümunəsi göstərir ki, uzunmüddətli münaqişəyə, iztirablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, güclü siyasi iradə və beynəlxalq dəstək mövcud olduqda sülh əldə etmək mümkündür”, - deyə Prezident İlham Əliyev bildirib.

***Mübariz ABDULLAYEV***

# Zəriflik və fədakarlıq simvolu

**Bu gün dünya şöhrətli alim Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümüdür**

Dünya şöhrətli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın həyatından, elmi və ictimai fəaliyyətindən bəhs edərkən mütləq qaydada “fədakar”, “fədai” kimi epitetlərdən istifadə etmək lazım gəlir. Bəli, o hər zaman öz işinə, elmi-ictimai fəaliyyətdə və ailə həyatında üzərinə düşən vəzifələrə böyük məsuliyyətlə yanaşır və yaxşı nəticələr əldə edirdi. Zərifə xanım Əliyeva bir mayak idi - hamı ona bənzəmək, onun kimi sadə və böyük, zərif və fədakar olmaq istəyirdi.

Bahar qızı adlandırılan, zəngin və mənalı ömür yolu keçən Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açıb. Bu gün Azərbaycan elminin və xalqımızın milli-mənəvi dəyərlərinin zənginləşməsinə özünün sanballı töhfələrini verən Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümüdür.







### Peşə oftalmologiyasının təməlini qoyan görkəmli alim

Elm fədaisi olan Zərifə xanım Əliyeva sonradan çoxillik səmərəli fəaliyyəti, fundamental axtarışları ilə Azərbaycan tibb elminə çox mühüm yeniliklər gətirib. Həmin dövrdə Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə nəinki oftalmologiya elmi üçün, hətta bütünlükdə respublika üçün mühüm məsələyə çevrilmişdi. Göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini məhz traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib.

Zərifə xanım Əliyeva 1968-ci ildən başlayaraq peşə oftalmologiyasının problemləri ilə ciddi məşğul olub. Məlumdur ki, ötən əsrin 70-80-ci illərində o dövrdə Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin böyük səyləri sayəsində respublikamıza güclü sənaye inkişafı izlənilirdi. Həmin dövrdə Zərifə xanım Əliyeva təzə tikilmiş zavod və fabriklərdə işləyən sadə əməkçilərin qayğısına qalır, onların peşə xəstəlikləri probleminin həlli uğrunda çalışırdı. Zərifə xanım peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərini dünyada ilk araşdıran alimlərdən olub, əslində, elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub.

Dünyada bu sahədə ilk elmi-tədqiqat laboratoriyasını da məhz o, yaradıb. Zərifə xanım, həmçinin apardığı tədqiqatların gedişində “Göz yaşının axmasının fiziologiyası”, “Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri”, “Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti” və s. kimi onlarla elmi məqalə və monoqrafiya çap etdirib. Zərifə xanım Əliyevanın tədqiqatlarının mühüm bir istiqaməti yodsənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərlə bağlı idi.

Elmi tədqiqatların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən “Şin istehsalında gözün peşə patologiyası”, “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” monoqrafiyalarını çap etdirməyə nail olub. “Xroniki yod intoksikasiyasında oftalmologiya” mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü görüb. Zərifə xanım Əliyeva fundamental “Terapevtik oftalmologiya” kitabının müəlliflərindən biridir və bu kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitab olaraq qalır. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr edib. Zərifə xanım Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Peşə oftalmologiyası Zərifə xanımın ilklərə imza atdığı yeganə elmi istiqamət deyil. O, həm də alternativ təbabət sahəsi olan iridodiaqnostikanın bir elm kimi araşdıran ilk alimlərdən idi. Zərifə xanım “İridodiaqnostikanın əsasları” kimi fundamental elmi əsərin müəlliflərindən biri idi. Həmin dövrdə kitabın nəşri də elə Zərifə xanımın səyi nəticəsində mümkün olmuşdu.

Zərifə xanım Əliyevanın tədqiqatları, elmi axtarışları Azərbaycanda bir yenilik idi. Sonralar böyük xidmətlərinə, çoxillik elmi tədqiqat işlərinə görə professor Zərifə Əliyeva Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib.

### Böyük xoşbəxtlik və böyük məsuliyyət

Azərbaycan xalqının əsrlərin sınağından çıxan zəngin milli-mənəvi dəyərlər sistemi var və burada ailə dəyərləri ən üstün mövqedə dayanır. Zərifə Əliyeva da elmin zirvələrinə yüksələn, dünya şöhrəti qazanmış alim olmaqla yanaşı, həm də xalqımızın ailə dəyərlərinə son dərəcə sadiq qalan bir xanım idi.

Yeri gəlmişkən, Zərifə Əliyeva sıradan bir ailənin xanımı deyildi. O, Azərbaycan xalqının Ümummilli Lideri, respublikamızın o dövrdəki rəhbəri və sonralar keçmiş SSRİ-nin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinədək yüksələn Heydər Əliyevin həyat yoldaşı idi. Onunla unikal şəxsiyyət olan Heydər Əliyevin ulduzunun barışması saf sevgi əsasında baş tutmuşdu. Ulu Öndərin Özü aradan illər ötəndən sonra da Zərifə xanıma olan sonsuz məhəbbətini böyük sevinclə dilə gətirirdi. Heydər Əliyev kimi yüksək vəzifələrdə çalışan şəxsiyyətin ömür-gün yoldaşı olmaq Zərifə xanım üçün yalnız xoşbəxtlik deyildi, həm də böyük məsuliyyət idi.

Təbii ki, Zərifə Əliyeva və onun ömürgün yoldaşı Heydər Əliyev bütün valideynlər kimi, öz övladları üçün ən yaxşı olanları arzulayırdılar və həm də bunun üçün gecəgündüz böyük səy göstərirdilər. Onların bu zəhməti hədər getməyib. İki unikal şəxsiyyətin - Zərifə Əliyeva ilə Heydər Əliyevin ailəsində böyüyüb boya-başa çatan İlham Əliyev artıq iki onillikdən çoxdur ki, müstəqil Azərbaycana uğurla rəhbərlik edir və tarixə adını Müzəffər Lider kimi yazdırıb.

Övladının yüksək məqama çatması, Vətən, xalq üçün faydalı işlər görməsi hər bir valideynin arzusudur. Bu mənada deyə bilərik ki, Azərbaycan üçün milli ruhlu, müasir düşüncəli Lider yetişdirən Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva xoşbəxt valideynlər olublar.

***Mübariz FEYİZLİ***



# Milli Məclisin iclasında...
# Mərkəzi Seçki Komissiyasının yeni tərkibi formalaşdırılıb

*Nardar BAYRAMLI*

Aprelin 27-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyə 11 məsələ daxil edilib. İclasda ilk olaraq Mərkəzi Seçki Komissiyasının üzvlərinin və əvəzedici üzvlərinin təyin edilməsi haqqında məsələyə baxılıb. Spiker Sahibə Qafarova bildirib ki, Mərkəzi Seçki Komissiyası üzvlərinin səlahiyyət müddəti başa çatıb və "Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinə əlavələr edilməsi haqqında" Konstitusiya Qanununa əsasən Milli Məclis komissiyanın yeni tərkibini formalaşdırmalıdır: "Seçki Məcəlləsinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının 18 üzvünün namizədlikləri aşağıdakı qaydada təqdim edilməlidir: 6 nəfərin namizədlikləri Milli Məclisdə çoxluq təşkil edən siyasi partiya tərəfindən; 6 nəfərin namizədlikləri heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatlar tərəfindən; 6 nəfərin namizədlikləri isə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyalar tərəfindən. Bununla birlikdə, Seçki Məcəlləsinə əsasən, Mərkəzi Seçki Komissiyasının 3 nəfər əvəzedici üzvünün namizədlikləri də eyni qaydada Milli Məclisə təqdim edilməlidir. Artıq bütün lazımi prosedurlar icra olunmuş və namizədlər müəyyən edilib".

S.Qafarova qeyd edib ki, Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün, habelə Milli Məclisdə azlıq təşkil edən siyasi partiyaları - Vətəndaş Həmrəyliyi Partiyasını, Ədalət, Hüquq, Demokratiya Partiyasını, Azərbaycan Demokratik İslahatlar Partiyasını, Böyük Quruluş Partiyasını, Azərbaycan Demokratik Maarifçilik Partiyasını, Milli Cəbhə Partiyasını, Böyük Azərbaycan Partiyasını, Azərbaycan Milli İstiqlal Partiyasını, Ana Vətən Partiyasını, Respublikaçı Alternativ Partiyasını Milli Məclisdə təmsil edən deputatların yığıncağının qərarı ilə Mərkəzi Seçki Komissiyasının 6 nəfər üzvünün və 1 nəfər əvəzedici üzvünün namizədlikləri Milli Məclisə təqdim edilib. "Onu da qeyd edim ki, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq, Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan (müstəqil) deputatların təqdim etdiyi namizədlərdən biri Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri ilə, digər bir namizəd isə azlıq təşkil edən siyasi partiyaların nümayəndələri ilə razılaşdırılıb"- deyə spiker vurğulayıb.

Müzakirələrdən sonra səsvermə keçirilib və MSK-nin yeni tərkibi müəyyənləşib. MSK-nın üzvlüyünə Sevinc Abdullayeva, Fuad Cavadov, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Elçin Xələfov, Ramiz İbrahimov, Rövzət Qasımov, Almas Qəhrəmanlı, Etibar Quliyev, Elmar Məmmədov, İlham Məmmədov, Arifə Muxtarova, Qabil Orucov, Hüseyn Paşayev, Məzahir Pənahov, Mikayıl Rəhimov və İlkin Şahbazov təyin edilib. Bununla yanaşı, Aysel Cəlilova, Züriyə Qarayeva və Elnarə Mustafayeva MSK-nın əvəzedici üzvləri kimi təsdiqlənib.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati tədbirlər və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiqinə dair qanun layihəsi qəbul olunub. Sənəd 2026-cı il yanvarın 15-də Cenevrə şəhərində imzalanıb. Bildirilib ki, sazişin imzalanmasında əsas məqsəd Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası (WUF13) ilə əlaqədar təşkilati tədbirləri və maliyyə məsələlərini nizama salmaqdır. Sazişdə tədbirin keçirilmə yeri kimi Bakı Olimpiya Stadionu, keçirilmə tarixi isə 17-22 may 2026-cı il müəyyən edilib.

Sənədə əsasən, tədbirin keçirildiyi dövrdə təhlükəsizlik tədbirlərinə dair tələblər, fors-major, iştirak üçün fərd və nümayəndələrin dairəsi, maliyyə tənzimləmələri və öhdəliklər, yaranacaq əlavə xərclər, istifadə olunmalı olan bank hesabları, valyuta növü, BMT-nin Məskunlaşma Proqramına dair öhdəliklərlə bağlı məsələlər, məkanlar, yerləşdirmə, təchizat, xidmətlər, sərgi, telekommunikasiya, yerli heyət, məxfilik və digər vacib məsələlər tənzimlənir.

Daha sonra Milli Məclis "Azərbaycan Respublikası Hökuməti ilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi arasında Ev Sahibi Ölkə Sazişi"ni təsdiqləyib. Sazişin əsas məqsədi qeyd olunan Mərkəzin öz funksiyalarını və vəzifələrini səmərəli şəkildə həyata keçirməsi üçün imkanlar yaratmaq, o cümlədən Nizamnaməyə uyğun olaraq Mərkəzin heyət üzvlərinin işini asanlaşdırmaq və Mərkəz və ev sahibi ölkə arasında əsas münasibətləri tənzimləməkdir.

Qanun layihəsində vurğulanıb ki, saziş Mərkəzin, o cümlədən onun binasının və heyət üzvlərinin hüquqi statusunu, imtiyazlarını və immunitetlərini müəyyən edir. Sənədin müddəalarına əsasən, Mərkəz hüquqi şəxs statusuna və bir sıra səlahiyyətlərə (müqavilələr bağlamaq, daşınmaz və daşınar əmlak əldə etmək, məhkəmələrə müraciət etmək və s) malikdir. Bildirilib ki, sazişin digər müddəaları binanın yerləşdiyi yer (Bakı şəhəri), onun saxlanması xərcləri, kommunal xərclər, təhlükəsizlik, sanitar tələblər, fövqəladə hallar zamanı hərəkətlər, binanın və arxivin toxunulmazlığı, əmlak, fond aktivlər, azadolmalar, heyətin immunitet və imtiyazları, yaşayış imkanları, viza və s. məsələləri tənzimləyir.

Deputatlar Azərbaycanla Efiopiya arasında müdafiə sahəsində əməkdaşlıq sazişini də ratifikasiya ediblər. "Azərbaycan Respublikası Hökuməti ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında" Saziş 2026-cı il 27 fevral tarixində Bakı şəhərində imzalanıb. Sazişin əsas məqsədi tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq üçün hüquqi çərçivə yaratmaq, müdafiə sahəsində əməkdaşlığın beynəlxalq sülh və sabitliyi təşviq etdiyini nəzərə alaraq müvafiq istiqamətlər üzrə ikitərəfli əlaqələri (hərbi təhsil, məşq, təlim, mülki-hərbi əməkdaşlıq, sülhməramlı və humanitar əməliyyatlar, maddi-texniki təminat, hərbi-texniki əməkdaşlıq və sairə istiqamətlərdə) genişləndirmək və möhkəmləndirməkdir.

Sazişdə əməkdaşlığın formaları kimi rəsmi səfərlər və işgüzar görüşlər, hərbi təhsil, treninq, ikitərəfli danışıqlar, məsləhətləşmələr, hərbi təlimlərdə iştirak, müdafiə sərgilərində iştirak, hərbi və mülki heyətlərin səfərləri və s. nəzərdə tutulur. Bu sənədin həyata keçirilməsi üçün həvalə edilmiş səlahiyyətli orqan hər iki ölkənin Müdafiə Nazirliyidir.

Qeyd edək ki, deputatlar gündəlikdə olan digər qanun layihələrini də qəbul ediblər.

İclasın sonunda spiker Sahibə Qafarova Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə "Sülh və Barışıq üçün Gernika mükafatına" layiq görüldüyünü bildirib. O, deyib ki, bu mükafat bütün çətinliklərə baxmayaraq, regionumuzda sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olunması naminə möhtərəm Prezident İlham Əliyevin göstərdiyi böyük səylərin beynəlxalq ictimaiyyət tərəfindən də qəbul edilməsi və yüksək qiymətləndirilməsi deməkdir: "30 il ərzində torpaqlarının işğalı ilə üzləşmiş və münaqişə şəraitində yaşamış xalqın nümayəndələri olaraq biz cənab Prezidenti bu mötəbər mükafata layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, dövlətimizin başçısına sülh və qarşılıqlı anlaşma naminə yorulmaz fəaliyyətində davamlı uğurlar arzulayırıq".

# Ermənistanın monoetnikləşdirmə siyasəti...




Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımılarından böyük əziyyət çəkib. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatıb. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə yalnız ermənilər yaşayırlar. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

**Azərbaycanın tarixi-mədəni irsi məhv edilib**

Ermənistan hökuməti Azərbaycanın maddi və qeyri-maddi mədəni irsini bilavasitə məqsədli şəkildə və azərbaycanlılara qarşı etnik ayrı-seçkiliyi təşviq edən təbliğat aparmaqla məhv edib. Dağıntı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən əvvəl, işğal zamanı və ondan sonrakı dövrdə baş verib. Yəni Ermənistandakı Azərbaycanın mədəni irsinin demək olar ki, hamısı hərbi əməliyyatların təsiri olmadan, əvvəlcədən planlaşdırılmış şəkildə məhv edilib. Başqa sözlə, Azərbaycan mədəni irsinin məhv edilməsinin "hərəkətverici qüvvəsi" Ermənistan hökumətinin monoetnik və təkmədəniyyətli məkanın yaradılmasına yönəlmiş sistematik irqi ayrı-seçkilik siyasəti olub və təəssüf ki, bu mənfur hədəfləri reallığa çevrilib.

Ermənistanın azərbaycanlıların mədəni irsinə qarşı törətdiyi qanunsuzluqlara irs nümunələrinin mənimsənilməsi və təhrif edilməsi də daxildir. Ermənistanda salamat qalmış yeganə məscid olan paytaxt İrəvandakı Göy Məscid qəsdən yanlış şəkildə "fars məscidi" kimi təqdim edilir. Əslində, məscidi inşa edən və əsrlər boyu orada ibadət edənlər o vaxt şəhərdə mütləq əksəriyyəti təşkil etmiş azərbaycanlılar olublar. Ermənistan hökuməti orada Azərbaycan mədəniyyətinin son izlərini silməkdə davam edir.

Məsələ ilə bağlı Bakı Təşəbbüs Qrupu (BTQ) bəyanatla çıxış edib. Qurumdan bildirilib ki, Ermənistan ərazisində tarixən yaşamış azərbaycanlılara qarşı həyata keçirilmiş siyasət təkcə etnik ayrı-seçkilik deyil, həm də sistemli şəkildə aparılmış müstəmləkəçi təfəkkürün, irqi ayrı-seçkilik xarakterli və monoetnikləşdirməyə hədəflənmiş siyasətin tərkib hissəsi olub: "Azərbaycanlıların yeganə "günahı" onların milli mənsubiyyəti idi. Onlar 1905-1906-cı illərdə, 1918-ci il və XX əsrin sonrakı mərhələlərində kütləvi qırğınlara, etnik təmizləməyə, siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının kobud şəkildə pozulmasına məruz qalıb. Azərbaycanlılara qarşı törədilən kobud qanun pozuntuları kolonial güclərin tarixən müstəmləkə altında saxladığı xalqlara qarşı törətdiyi vəhşiliklərin təkrarı idi".

**BTQ beynəlxalq ictimaiyyətə çağırış edib**

Qeyd edilib ki, Ermənistan SSR-nin məqsədyönlü şəkildə həyata keçirdiyi kolonial təfəkkürlü siyasət azərbaycanlıların öz tarixi yaşayış məkanlarından mərhələli şəkildə sıxışdırılmasına, onların mədəni-dini irsinin silinməsinə və nəticə etibarilə Ermənistanın monoetnik respublikaya çevrilməsinə xidmət edib. Bu xüsusda azərbaycanlıların kütləvi sürgün əməliyyatları 1948-1953-cü illəri əhatə edib və 150 mindən çox azərbaycanlı öz el-obasından didərgin düşüb. Bu aktlar insan talelərində dərin faciələr yaradıb, minlərlə ailəni doğma torpaqlarından ayırıb, ağır köçürülmə şəraiti insanların həyatına, sağlamlığına və sosial vəziyyətinə ağır zərbə vurub. Eyni zamanda, azərbaycanlılara məxsus tarixi-mədəni irs məqsədyönlü şəkildə silinib, Azərbaycan mənşəli toponimlər kütləvi qaydada dəyişdirilib, yaşayış məntəqələri, qəbiristanlıqlar, dini və mədəni abidələr dağıdılıb və ya özgələşdirilib. Bu siyasət yalnız insanların fiziki olaraq öz yurdlarından çıxarılması ilə məhdudlaşmayıb, onların tarixi yaddaşının və mədəni izlərinin silinməsini də hədəfləyib.

BTQ bəyan edib ki, 1987-ci ilin sonlarından etibarən Ermənistan hakimiyyəti Azərbaycana qarşı ərazi iddialarını yenidən gündəmə gətirib, bunun ardınca Ermənistanda hələ də yaşamaqda olan 250 mindən çox azərbaycanlı zor gücünə öz doğma yurdlarından qovulub. Azərbaycanlıların yaşadığı kəndlərə silahlı hücumlar təşkil edilib, insanlar öz evlərini tərk etməyə məcbur edilib, beləliklə, Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti başa çatdırılıb. "Bu proses yalnız azərbaycanlılara qarşı yönəlməyib. Ermənistanın monoetnik dövlətə çevrilməsi siyasəti nəticəsində digər etnik və dini azlıqlar da sıxışdırılıb, onların sayı kəskin şəkildə azalıb. Bu fakt Ermənistanın uzun illər ərzində məqsədyönlü şəkildə bu siyasəti apardığını göstərir. Ermənistan bununla da kifayətlənməyib, Azərbaycanın suveren ərazilərinin 20 faizini işğal edib. Bu gün Ermənistan və Azərbaycan arasında sülh gündəliyinin irəlilədiyi bir vaxtda Ermənistan cəmiyyətində azərbaycanlılara və türklərə qarşı nifrət ritorikasının, revanşist çağırışların və irqçi yanaşmaların hələ də mövcud olması ciddi narahatlıq doğurur. Davamlı sülh yalnız tarixi ədalətsizliklərin etirafı, insan hüquqlarına hörmət, ayrı-seçkilik siyasətindən imtina və zorla çıxarılmış insanların hüquqlarının bərpası əsasında mümkün ola bilər",-deyə bəyanatda vurğulanıb.

Bakı Təşəbbüs Qrupu beynəlxalq ictimaiyyəti, insan hüquqları institutlarını, BMT-nin müvafiq mexanizmlərini və digər beynəlxalq təşkilatları Ermənistan dövlətinin azərbaycanlılara qarşı həyata keçirdiyi müstəmləkəçi təfəkkürlü, həmçinin etnik ayrı-seçkilik, dözümsüzlük siyasətinə obyektiv qiymət verməyə çağırıb.

*Nardar BAYRAMLI*

# Nyu-York şəhərinin merinə çağırış: Səhvinizi düzəldin!

ABŞ-ın Nyu-York şəhərinin meri Zohran Kvami Mamdani 1915-ci il hadisələri ilə bağlı "X" paylaşımında əsassız olaraq Azərbaycanı və Türkiyəni 2020-ci ildə Qarabağın erməni əhalisinə hücumda və onları Qarabağdan qovmaqda ittiham edib. O, bunu "100 il əvvəl başlamış soyqırım kampaniyasının davamı" adlandırıb. Əslən hindistanlı müsəlman ailəsində dünyaya gələn Zohran Kvame Mamdani bu ilin yanvarında Nyu-York meri seçilib. Onun qələbəsi bir çox ABŞ KİV-ləri tərəfindən 2024-cü il seçkilərində Respublikaçılara ağır məğlub olmuş Demokratlar Partiyasının geri dönüşü kimi dəyərləndirilib.




## XİN: Bu cür məsuliyyətsiz bəyanatlar qəbuledilməzdir

Qeyd edək ki, Nyu-York merinin sözügedən paylaşımı ölkəmizdə etirazla qarşılanıb. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Zohran Kvame Mamdaninin anti-Azərbaycan bəyanatını tənqid edərək, ictimai xadimləri dezinformasiya yaymaqdan çəkinməyə və barışığa töhfə verməyə çağırıb. O, "X" sosial şəbəkəsində merə müraciətlə yazıb: "Mer Zohran Kvame Mamdani, ictimai xadimlər məsuliyyətlə davranmalı, dezinformasiya yaymaqdan çəkinməli və siyasi motivli, eləcə də tarixi cəhətdən yalan bəyanatlar vasitəsilə ayrılığı dərinləşdirməyə deyil, barışığa töhfə verməlidirlər. Biz sizin təxribat xarakterli bəyanatınızı rədd edirik". Onun sözlərinə görə, bu cür açıqlamalar regionun tarixi və reallıqlarının anlaşılmadığını göstərir və faktları siyasi narrativlərin xeyrinə təhrif edir.

A.Hacızadə vurğulayıb ki, 2020-ci ildə Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış ərazisi hüdudlarında, beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq hərəkət edib. XİN rəsmisi əlavə edib ki, 2023-cü ilin antiterror tədbirləri 30 illik qanunsuz işğaldan sonra konstitusiya quruluşunun bərpa olunması ilə nəticələnib: "Qovulma" barədə iddialar erməni sakinlərə reinteqrasiya, tam bərabər hüquqlar və təhlükəsizlik zəmanətlərinin təklif edildiyi faktını gözardı edir. Seçilmiş vəzifəli şəxsin işğal dövründə yüzminlərlə azərbaycanlıya qarşı etnik təmizləmə və kütləvi qətlləri, eləcə də mədəni və dini irsin dağıdılmasını gözardı edərək birtərəfli narrativləri təşviq etməsi xüsusi narahatlıq doğurur. Bu cür məsuliyyətsiz bəyanatlar qəbuledilməzdir və dərhal silinməlidir".

## QHT-lər: Bu, Ermənistanla normallaşma addımlarına qarşıdır

Qeyd edək ki, Azərbaycanın bir qrup QHT nümayəndəsi də "X" platformasında 1915-ci il qondarma erməni soyqırımı, həmçinin 2020-2023-cü illərdə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmək səyləri barədə həqiqətdən uzaq fikirlər səsləndirmiş Nyu-York şəhərinin meri Zohran Kvame Mamdaniyə açıq məktubla müraciət edib. Açıq məktubda QHT təmsilçiləri merin Azərbaycan əleyhinə reallıqdan uzaq fikirlərini qəbulolunmaz hesab ediblər. "Təəssüf ki, Bayden-Blinken dövrünün ruhuna uyğun olaraq Nyu-York şəhər meri kimi mandatınızla uzlaşmayan bu siyasi açıqlama ilə milyonlarla insanın hisslərinə toxunmusunuz. Erməni lobbi qruplarının, Nyu-Yorkdakı bir qrup erməni icmasının birtərəfli məlumatları əsasında Azərbaycan və Türkiyə əleyhinə səsləndirdiyiniz fikirləri biz 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvəsində ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunmuş sülh prosesinə zidd hesab edirik, bu, Ermənistanla normallaşma addımlarına qarşıdır. Regiondan, Ermənistan hüdudlarından xeyli kənarda yaşayan erməni diasporunun, o cümlədən ABŞ-dakı erməni diasporunun müəyyən hissəsi bu sülh səylərinə mane olmağa çalışır. Siz bu açıqlama ilə faktiki olaraq revanşist qüvvələrin destruktiv gündəliyini müdafiə etmisiniz. Ola bilsin sizi yanlış məlumatlandırıblar", - deyə məktubda vurğulanıb.

Qeyd olunub ki, hazırda Cənubi Qafqaz ağır, qanlı bir tarixi səhifəni çevirərək sülh, təhlükəsiz birgəyaşayış üçün imkanları, fürsətləri genişləndirir. Bu gün regionda sülh var, biz sizi sülhü dəstəkləməyə çağırırıq. Azərbaycan və Ermənistan xalqlarının tarixində yeni bir dövr açılır. Təəssüf edirik ki, bir qrup erməni diaspor dairələri sülhü deyil, müharibəni dəstəkləyir, ABŞ siyasətçilərini də yanlış istiqamətə doğru yönəldirlər. İnsan hüquqlarının müdafiəsi və tarixi faciələrin anılması həqiqətən mühüm dəyərə malikdirsə, o zaman Ermənistan tərəfindən Azərbaycan xalqının başına gətirilən faciələr, 1992-ci il Xocalı soyqırımı, işğal dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Qarabağda və Şərqi Zəngəzurda məhv edilmiş tarixi, dini, mədəni abidələr, urbisid unudulmamalıdır. Bu gün hələ də dinc azərbaycanlılar vaxtilə Qarabağda və Şərqi Zəngəzurda Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minalara düşərək həyatlarını itirir, əlil olurlar. Yüz minlərlə azərbaycanlı onilliklər boyunca fundamental hüquqlardan - təhlükəsizlik, mülkiyyət və doğma yurdlarına qayıtmaq hüququndan məhrum şəkildə yaşamalı olub.

QHT təmsilçiləri hesab edir ki, Nyu-York meri kimi nüfuzlu vəzifə sahibinin açıqlamaları yalnız bir tərəfin mövqeyinə əsaslanmamalı, əksinə, reallıqları əhatə etməlidir. Lakin təəssüf ki, onun açıqlamasında yüz minlərlə azərbaycanlı məcburi köçkünün taleyi və uzun illər davam edən əziyyətləri qeyd olunmayıb. "İnanırıq ki, məlumatların daha geniş və müstəqil şəkildə nəzərdən keçirilməsi regionda baş verən hadisələrin daha düzgün anlaşılmasına, işğalçı ilə işğala məruz qalanı fərqləndirməyə kömək edəcək. Biz sizə mövzu ilə bağlı daha geniş məlumat təqdim edə bilərik, sizinlə görüşməyə də hazırıq. Çox istərdik ki, Nyu-York təkcə uydurma "erməni soyqırımı" abidələrinin, xatirə lövhələrinin olduğu şəhər kimi tanınmasın. Siz tarixi faciələrə xüsusi diqqət ayıran mer kimi Nyu-Yorkda 1992-ci il Xocalı soyqırımı barədə abidə və ya xatirə lövhəsi ucalda, hər il fevralın 26-da bu memorial üzərinə erməni və azərbaycanlı icmalarının tər güllər düzmələrini təşkil edə bilərsiniz", - deyə açıq məktubda vurğulanıb.

*Nardar BAYRAMLI*

# Azərbaycan və ABŞ süni intellekt sahəsində əməkdaşlığı gücləndirir

“Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya”na əsasən, xarici şirkətlərlə rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılması nəzərdə tutulur. Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının - süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, “ağıllı şəhər” həlləri və s. sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır. Bu ssenariyə əsasən, dünyanın nəhəng texnologiya şirkətlərinin ölkəmizə cəlb edilməsi üçün əlavə tədbirlərin görülməsi planlaşdırılır.

## “Microsoft”un süni zəka quruculuğuna töhfəsi

Azərbaycan süni zəka sahəsində ABŞ-ın iri korporasiyaları ilə əməkdaşlığı isə əsas hədəflər sırasında görür. Bu məqsədlə son dövrlərdə Azərbaycan və ABŞ-ın süni intellekt sahəsində ixtisaslaşmış qurumları arasında əməkdaşlıq artmaqdadır. “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya”da bu istiqamətdə müştərək layihələrin icrası yer alıb ki, bu iqtisadi çərçivədə fəal qarşılıqlı təşəbbüslər müşayiət olunur.

Bu günlərdə əldə edilmiş razılaşmaya əsasən, “Haimaker” şirkəti ölkəmizdə süni intellekt sahəsində müvafiq infrastrukturun yaradılmasında davamlı proqramın icrası nəzərdə tutulur. “Haimaker” şirkətinin baş icraçı direktoru Su Le bildirib ki, bu istiqamətdə strateji təkliflər nəzərdən keçirilib, Ələt Azad İqtisadi Zonasında Data mərkəz və bulud platformasının qurulması, rəqəmsal texnologiyaların transferi perspektivləri ilə bağlı anlaşmalar əldə olunub. Əməkdaşlıq planı çərçivəsində tərəflər ABŞ rəqəmsal infrastruktur və kosmik sənaye sahəsində layihələri ölkəmizdə tətbiq planlaşdırırlar. Həmçinin Tədqiqat və İnkişaf platformalarının qurulması, innovasiya körpü proqramları və kibertəhlükəsizlik təşəbbüslərin həyata keçirilməsi nəzərdə tutulur.

ABŞ-ın digər texnologiya korporasiyası - “Intel”in vitse-prezidenti Sara Kemp isə bildirib ki, süni intellekt və yüksək performanslı hesablama infrastrukturu, “ağıllı” mobillik və bu sahələrdə milli kadr hazırlığı üzrə əməkdaşlıq imkanları planlaşdırılır.



ABŞ-ın texnologiya nəhəngi “Microsoft” da Azərbaycanda süni intellekt infrastrukturunun qurulması və genişləndirilməsinə sərmayə qoymağı planlaşdırır. Bu əməkdaşlıq çərçivəsində yaxın aylarda “Microsoft Business Platform” istifadəyə veriləcək. Platforma dövlət xidmətlərinin vahid pəncərə prinsipi ilə əlçatanlığını təmin edəcək.

## “SpaceX” və “EXIM Bank”ın sərmayə planları

Süni intellekt və “yaşıl iqtisadiyyat” transformasiyasında fəal rol oynayan Amerikanın nəhəng “SpaceX” şirkəti də qlobal miqyasda dəstəkləyici və investiyayönümlü fəaliyyəti ilə diqqəti cəlb edir. Bu şirkət də texnoilogiyalar və sənaye quruculuğunda Azərbaycana hərtərəfli dəstək vermək niyyətini bəyan edib və bu, ümidverici perspektivlər süni zəka sektoruna sərmayələrin axınını təmin edəcək. Habelə Amerikanın güclü iqtisadi dəstəyi və sərmayə təşviqləri sayəsində Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə və yeni bilik və bacarıqları ehtiva edən sahələrin inkişafına möhkəm baza yaranacaq.

Azərbaycan və ABŞ arasında əldə olunmuş anlaşmaya əsasən, Amerikanın nəhəng maliyyə institutu olan “EXIM Bank” translogistika və innovasiya layihələrinə ölkəmizə maliyyə dəstəyi göstərmək, innovativ alətlərin tətbiqində birgə iştirakçı olmaq niyyətindədir.

Ötən həftə Azərbaycanın “Azerconnect Group” şirkəti və Amerikanın qlobal texnologiya nəhəngi olan “NVIDIA” arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Əməkdaşlığın ilkin mərhələsində “Azerconnect Group” “GeForce NOW” xidmətini təqdim edəcək. ABŞ şirkəti əməkdaşlıq planı əsasında Azərbaycanda süni intellekt əsaslı şəbəkələr, 6G infrastrukturu və süni intellekt data mərkəzinin yaradılmasını prioritet istiqamətlər müəyyən edib.

Ameriaknın “Apple”, “Ericsson”, “Motorola Solutions”, “Honeywell”, “Parallel Wireless”, “Meta”, “Resecurity”, “Global Data Risk”, “WhiteFox Defense Technologies”, “Lummus Technology” və digər aparıcı şirkətləri də kibertəhlükəsizlik, süni intellekt və rəqəmsal texnologiyalar sahələrində ölkəmizlə əməkdaşlığa müsbət yanaşır. Ümumilikdə, ABŞ şirkətlərinin Azərbaycanın müasir innovasiyalar sektoruna da böyük marağı böyükdür və bu istiqamətdə fəal məsləhətləşmələr aparılır.Bütün bunlar Amerikanın inovasiya şirkətlərinin Azərbaycanda regional ekosistem quruculuğunda iştirakını təsdiqləməklə, Bakı-Vaşinqton münasibətlərində yeni iqtisadi mərhələnin başlandığını nümayiş etdirir.

## 4,4 milyard dollar dividend gözləntisi

Azərbaycanda orta və uzunmüddətli dövrün ssenarilərinə əsasən, iqtisadiyyatın inkişaf tələblərinə uyğun rəqəmsal infrastrukturun müasirləşdirilməsi, yeni rəqəmsal bizneslərin inkişafının təşviqi, startap və innovasiya yönümlü ekosistemin dəstəklənməsi, iqtisadi qərarvermədə data əsaslı analitikanın tətbiqi, beynəlxalq rəqəmsal inteqrasiyanın daha geniş tətbiqi, həmçinin yaşıl və dayanıqlı rəqəmsal iqtisadiyyatın inkişafı prioritet istiqamətlər kimi müəyyən edilib.

Respublikamız 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmlərini də artıra bilər.

Bu baxımdan ABŞ şirkətləri ilə süni zəka sahəsində mühüm təməllərin yaradılması adıçəkilən sahənin dayanıqlı inkişafı üçün mühüm hesab edilə bilər.

***E.CƏFƏRLİ***

# Zəif təhlükəsizlik, yaxud...

ABŞ Prezidenti Donald Tramp Ağ Ev Müxbirləri Assosiasiyası tərəfindən Vaşinqtondakı “Hilton” otelində təşkil olunan tədbirdə iştirak edib. Tədbir zamanı birdən zalda yüksək səslər eşidilib, bundan sonra çaxnaşma baş verib. ABŞ Məxfi Xidmətinin əməkdaşları Prezidenti, birinci xanım Melaniya Trampı, Vitse-prezident C.D. Vensi və Ağ Evin Mətbuat katibini zaldan çıxarıblar. Tədbirdə həmçinin Dövlət katibi Marko Rubio, maliyyə naziri Skott Bessent, müdafiə naziri Pit Heqset, FTB direktoru Keş Patel və digər yüksək vəzifəli rəsmilər iştirak ediblər.

“Reuters”in xəbərinə görə, tədbirdə 2600-dən çox insan iştirak edib. Atəş açılan zaman tədbir iştirakçılarının əksəriyyəti çıxışa qaçıb. AFP isə xəbər yayıb ki, müdaxilədən sonra otel binası mühasirəyə alınıb.

**Prezident mətbuat konfransı keçirdi...**

Silahlı insidentdən sonra prezident Trampın qatıldığı mətbuatla birgə şam yeməyi təxirə salınıb və bina hüquq-mühafizə orqanlarının tələbi ilə boşaldılıb. Bu barədə Amerika prezidenti özü məlumat verib. Tramp suiqəsd cəhdindən sonra mətbuat konfransı keçirib. O, hisslərini belə təsvir edib: “Bir səs eşitdim və bir qabın düşdüyünü düşündüm. Uzaqdan gələn yüksək səs idi. Gizli Xidmət təsirli bir iş gördü.”

O, sui-qəsd cəhdinin səbəblərini belə şərh edib: “Mən sui-qəsd cəhdlərini araşdırdım... onlar həmişə Abraham Linkoln kimi ən güclü insanları tənqid edirlər. Heç nə etməyənləri rahat buraxırlar. Biz ölkəni dəyişdik və bir çox insan bunu bəyənmir.” O, silahlı sui-qəsdçini xəstə adam adlandırıb.

**Sui-qəsdçi tutulub...**

Amerika mediasının məlumatına görə, hücum edən şəxs 31 yaşlı kaliforniyalı Kol Allen olub. Hücumun motivi araşdırılır. CNN-in məlumatına görə, o, müəllim işləyib və Kaliforniya Texnologiya İnstitutunun məzunu olub. Donald Tramp “Truth Social” media platformasındakı şəxsi hesabında iddia edilən cinayətkarın şəklini paylaşıb. Qeyd edək ki, silahlı suiqəsdçi təhlükəsizlik işçilərindən birini yaralayıb - Prezident Tramp sonradan həmin təhlükəsizlik işçisi ilə danışdığını və vəziyyətinin yaxşı olduğunu bildirib. Dövlət başçısı əvvəlcə onların otaqdan çıxmaq istəmədiyini, lakin protokola əməl etməli olduqlarını söyləyib. Polisin məlumatına görə, hadisədə iştirak edən şəxs tapança, ov tüfəngi və bıçaqlarla silahlanıb.

İlkin məlumatlara görə, o, otelin qonağı qismində binaya daxil olub - hazırda onun qaldığı otaq möhürlənib. Vaşinqtonun baş prokuroru Jenin Pironun sözlərinə görə, təcavüzkar açıq-aşkar mümkün qədər çox insana xəsarət yetirmək və mümkün qədər çox zərər vurmaq istəyib. Atışma tədbirin keçiriləcəyi zala girməzdən əvvəl foyedə baş verib.

**45 ildən sonra təkrar sui-qəsd: eyni binada, yenə də ABŞ prezidentinə...**

Vaşinqtondakı “Hilton” oteli bundan öncə də ABŞ prezidentinə suiqəsd “macərası” yaşayıb. Belə ki, 1981-ci il martın 30-da məhz həmin oteldə o dövrki ABŞ prezidenti Ronald Reyqana qarşı Con Hinkli Jr. tərəfindən sui-qəsd edilib. Sui-qəsdçi Reyqana bir neçə saniyə ərzində 6 dəfə atəş açmağı bacarmış, nəticədə 4 nəfər: prezidentin özü, onu qoruyan Gizli Xidmət agenti Tim Makkarti, polis zabiti Tomas Delahanti və Ağ Evin mətbuat katibi Ceyms Bredi yaralanmışdı. Həmin vaxt silahlı şəxs həbs edilib, lakin sonradan dəli olduğu məlum olub.

**Tramp: Prezident olmaq dünyanın ən təhlükəli işidir...**

Donald Tramp mətbuat konfransında gördüyü genişmiqyaslı işlərə görə dəfələrlə sui-qəsd cəhdlərinin hədəfi olduğunu deyib: “Onlar ölkəyə ən çox təsir edən prezidentləri öldürməyə çalışırlar”.

Tramp həm də prezident olmağı dünyanın ən təhlükəli işi adlandırıb: “Heç kim mənə bunun belə təhlükəli







bir iş olduğunu demədi. Marko mənə desəydi, bəlkə də prezidentliyə namizəd olmazdım. Bəlkə də geri çəkiləcəyimi deyərdim - Xeyr.  Bu təhlükəli bir işdir, amma bu barədə düşünmürəm. Bundan təhlükəli bir peşə təsəvvür edə bilmirəm. Amma mən ölkəmi sevirəm və bununla çox fəxr edirəm. Gördüyümüz işlərlə çox fəxr edirəm. Görürsünüz nə baş verdi? Bizim əla ölkəmiz var.”

CBS News-un məlumatına görə, şübhəli Trampın adını çəkməsə də, ABŞ administrasiyasının rəsmilərini hədəf aldığını bildirib.

**Təhlükəsizlik təmin edilməyib...**

CNN bildirib ki, Ağ Ev və ABŞ Məxfi Xidməti son atışma səbəbindən yüksək vəzifəli şəxslərin iştirak etdiyi tədbirlərdə təhlükəsizlik qaydalarını müzakirə ediblər. Müzakirə ABŞ Prezidenti və vitse-prezidentin atışma günü eyni otaqda olduqları nəzərə alınmaqla, belə tədbirlərdə nə qədər yüksək vəzifəli şəxsin iştirak edə biləcəyi məsələsinə yönəlib. Mənbələrdən birinin sözlərinə görə, ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens Ağ Evdəki qəbulda iştirak etməyəcəkdi, lakin tədbirdən qısa müddət öncə planlar dəyişib.

“The Washington Post” (WP) qəzeti isə yazır ki, ABŞ administrasiyası Vaşinqtonda keçirilən Ağ Ev Müxbirləri Assosiasiyasının qəbulunda maksimum təhlükəsizliyi təmin edə bilməyib. Qəzet bunu administrasiyadakı mənbələrə istinadla yayıb.

Nəşrin yazdığına görə, Prezident və kabinet üzvlərinin iştirak etdiyi tədbirlər adətən yüksək təhlükəsizlik səviyyəsi ilə seçilir. Lakin Vaşinqton “Hilton” otelində keçirilən bu tədbirə federal təhlükəsizlik resurslarının tam səfərbər olunmasına imkan verən status verilməyib.

WP-nin mənbələri bildirir ki, digər yüksək səviyyəli tədbirlərlə müqayisədə qəbulda daha aşağı səviyyədə təhlükəsizlik tədbirləri görülüb. Bu isə vəziyyəti “qeyri-adi dərəcədə həssas” edib.

**Prezident İlham Əliyev: Belə zorakılıq halları qəbuledilməzdir və qəti şəkildə pislənməlidir**

Prezident İlham Əliyev “X” sosial media hesabındakı paylaşımında bildirib ki, Vaşinqtonda keçirilən Ağ Ev Müxbirləri Assosiasiyasının şam yeməyində baş verən atışma məni dərindən sarsıtdı. Belə zorakılıq halları qəbuledilməzdir və qəti şəkildə pislənməlidir. Prezident Trampın, birinci xanımın və bütün iştirakçıların təhlükəsiz olması sevindiricidir. Onlara davamlı təhlükəsizlik və rifah arzulayıram”, - deyə dövlətimizin başçısı vurğulayıb.

**Dünya liderləri narahatlıqlarını bildirdilər...**

Almaniya kansleri Fridrix Merts də ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda qatıldığı qəbulda baş verən atışmanı qətiyyətlə pisləyib. “Zorakılığın demokratiyada yeri yoxdur. Biz qərarları silah gücü ilə deyil, səs çoxluğu ilə qəbul edirik. Mən Vaşinqtondakı hücum cəhdini pisləyirəm və Prezident Trampın, birinci xanım Melaniya Trampın və orada olan hər kəsin təhlükəsiz olduğuna şadam”, Merts “X”-da yazıb.

Britaniyanın Baş naziri Kir Starmer Vaşinqtonda Ağ Ev müxbirlərinin şam yeməyində baş verən səhnələrdən dəhşətə gəldiyini söyləyib. “Demokratik təsisatlara və ya mətbuat azadlığına edilən hər hansı bir hücum ən sərt şəkildə pislənməlidir”,- deyə Britaniya Baş naziri vurğulayıb.

Fransa Prezidenti Emmanuel Makron hücumu “qəbuledilməz” adlandırıb. Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen də zorakılığın heç bir halda siyasətdə yeri olmadığını bildirib. Öz növbəsində, Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas mətbuat azadlığına həsr olunmuş tədbirin qorxu yerinə çevrilməməli olduğunu yazıb.

İspaniyanın Baş naziri Pedro Sançes də hücumu pisləyib. “Zorakılıq heç vaxt cavab deyil. Bəşəriyyət yalnız demokratiya, birgəyaşayış və sülh yolu ilə irəliləyəcək”, - deyə o yazıb.

İsrailin Baş naziri Benyamin Netanyahu, özü və həyat yoldaşının Trampa qarşı sui-qəsd cəhdindən sarsıldığını söyləyib. Kanadanın Baş naziri Mark Karni də hər kəsin təhlükəsiz olduğuna görə rahatlıq duyduğunu qeyd edib: “Siyasi zorakılığın heç bir demokratiyada yeri yoxdur və mənim fikirlərim bu narahatedici hadisədən şoka düşənlərin hamısı ilədir”.

***SADİQ***

# Hörmüz müəmması davam edir...

## İran yeni təklif irəli sürür - boğaz açılsın, nüvə danışıqları təxirə salınsın

İran-ABŞ danışıqlarında olduqca mühüm predmet olan Hörmüz boğazı ilə bağlı yeni gündəm ortaya çıxıb. Xatırladaq ki, Pakistanda keçirilən birinci danışıqlar raundunun ardından Hörmüzdə “fövqəladə vəziyyət” hökm sürməkdədir - ABŞ və İran arasında əldə edilən atəşkəs razılaşmasından sonra Pakistanın vasitəçiliyi ilə aparılan danışıqlar nəticə verməyib. Bundan sonra ABŞ prezidenti Donald Tramp 13 apreldə İrana qarşı “dəniz blokadası” elan edib və Hörmüz boğazından keçən İranla əlaqəli gəmilərə qarşı əməliyyatlara başlayıb. Bu dövrdə ABŞ Oman körfəzində və Hind okeanında bir neçə İran ticarət gəmisinə hücum edərək onları saxlayıb. Buna cavab olaraq İran Hörmüz boğazında İsraillə əlaqəli bəzi gəmilər də daxil olmaqla, bir sıra gəmiləri ələ keçirib və saxlayıb.

Qeyd edək ki, İran boğazdan keçən gəmilərə rüsum tətbiq etməyi planlaşdırır. Hətta bir neçə gün öncə İran hakimiyyəti gəmilərin Hörmüz boğazından keçidindən ilk dəfə rəsmi rüsum yığaraq gəlir əldə etdiyini bildirmişdi. İran parlamentinin vitse-spikeri Hacı Babayi demişdi ki, Hörmüz boğazındakı keçid haqlarından əldə olunan ilk vəsaiti artıq mərkəzi bankın hesabına köçürülüb.

### Yeni təklif...

Amma ABŞ blokadası İranın vəziyyətini çətinə salıb. Media yazır ki, İran ABŞ-a Hörmüz boğazının açılması müqabilində nüvə danışıqlarını təxirə salmağı təklif edib. “Axios”un məlumatına görə, Tehran Pakistan vasitəsilə Vaşinqtona Hörmüz boğazı ətrafındakı böhranın həllinə dair təklif çatdırıb. Rəsmilərin sözlərinə görə, İran ya atəşkəsin uzunmüddətli uzadılmasını, ya da münaqişəyə tamamilə son qoymaq üçün razılaşma təklif edir. Mənbələr həmçinin iddia edirlər ki, təklifə əsasən, nüvə danışıqları yalnız növbəti mərhələdə - boğaz yenidən açıldıqdan və blokada qaldırıldıqdan sonra başlayacaq.

Məlumata görə, İranın xarici işlər naziri Abbas Əraqçi İslamabadda keçirilən danışıqlar zamanı bu məsələni qaldırıb. Lakin Ağ Evin bu təklifi nəzərdən keçirməyə hazır olub-olmadığı hələ də məlum deyil. İran ABŞ-a Hörmüz boğazını açmağı və Tehranın nüvə proqramı ilə bağlı danışıqları gələcək tarixə təxirə salmaqla müharibəyə son qoymağı təklif edib. Nəşrin məlumatına görə, danışıqlar çıxılmaz dalana dirənib və İran liderləri Tehranın nüvə proqramı ilə bağlı güzəştlərə getmək ehtimalı ilə bağlı fikir ayrılığındadırlar. Qeyd edilir ki, İranın təklifi bu problemi aradan qaldıracaq və daha sürətli bir razılaşmaya gətirib çıxaracaq. Lakin Hörmüz boğazının blokadasının qaldırılması və müharibənin sona çatması ABŞ prezidenti Donald Trampı İranın zənginləşdirilmiş uran ehtiyatlarını xarici ölkəyə köçürməsinə və zənginləşdirməni dayandırmasına yönəlmiş gələcək danışıqlarda təsir gücündən məhrum edəcək.

“Axios”un istinad etdiyi 3 adı açıqlanmayan ABŞ rəsmisinə görə, Tramp milli təhlükəsizlik və xarici işlər qrupunun yüksək vəzifəli şəxsləri ilə İranla bağlı görüş keçirmək niyyətindədir. Mənbələrdən biri görüşdə dalana dirənmiş danışıqlar və növbəti addımların müzakirə olunacağını bildirib.

### Uran məsələsi 3-cü mərhələyə qalır? - ABŞ razı deyil...

“Əl Mayadeen” televiziya kanalının məlumatına görə, İran ABŞ-a danışıqların 3 mərhələyə bölünməsini təklif edib. Birinci mərhələ müharibənin sona çatması, İran və Livan üçün zəmanətlərin verilməsi barədə razılaşmanı əhatə etməlidir. İkinci mərhələ Hörmüz boğazının idarə olunmasını, üçüncü mərhələ isə İranın nüvə proqramına yönələcək. “Əl Mayadeen”in yaydığına görə, Tehran əvvəlki 2 mərhələ üzrə razılıq əldə olunana qədər üçüncü mərhələni müzakirə etməkdən imtina edir. 26 apreldə “Fox News”a verdiyi müsahibədə isə Donald Tramp İran neftinin ixracının qabağını alan Hörmüz blokadasını davam etdirmək niyyətində olduğunu açıq şəkildə dilə gətirib. Prezident bunun Tehranı yaxın bir neçə həftə ərzində güzəştə getməyə məcbur edəcəyinə ümid etdiyini vurğulayıb.

ABŞ rəsmiləri əvvəllər də ABŞ-ın əsas qırmızı xəttinin İranın nüvə silahına sahib olmaması məsələsi olduğunu bildirmişdilər - Ağ Evin mətbuat katibi Kerolin Levitt qeyd etmişdi ki, Tehranın uranı zənginləşdirməsinin dayandırılması Trampın prioritetləri siyahısının əvvəlindədir.




### Vaşinqton İslamabada “sülh qrupu” göndərməyəcək...

Müsahibədə Tramp artıq Pakistana hər hansı ABŞ danışıqlar qrupu göndərmək niyyətində olmadığını söyləyib. Amerika liderinin deyib ki, bu, çox vaxt aparırdı. “Əgər istəsələr, danışa bilərik, amma görüşmək üçün insanları 18 saatlıq səfərə göndərməyəcəyik”, - deyə Amerika prezidenti yekunlaşdırıb.

Bir gün əvvəl o, “sülhyaratma qrupun”nun üzvləri olan Stiven Vitkoff və Cared Kuşnerin aprelin sonunda ABŞ-İran danışıqlarının növbəti mərhələsinin keçirilməsi planlaşdırılan İslamabada elan edilmiş səfərini ləğv edib. Həmin gün danışıqlarda ölkəni təmsil edən İranın xarici işlər naziri Abbas Əraqçi da Pakistanı tərk edib.

### Əraqçi Rusiyaya gedir...

Bu arada, “Reuters” agentliyi aprelin 27-də İran mediasına istinadən xəbər verib ki, Əraqçi Rusiyaya səfər etməyi planlaşdırır və orada rusiyalı tərəfdaşları ilə ikitərəfli münasibətlər və regional məsələlər, o cümlədən İran-ABŞ münaqişəsini müzakirə edəcək. İran səfirliyi də öz növbəsində Əraqçinin ABŞ ilə danışıqların gedişatı, atəşkəs və münaqişə ətrafındakı vəziyyətlə bağlı məsləhətləşmələr aparmaq üçün Moskvaya uçacağını açıqlayıb. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Əraqçinin Vladimir Putinlə də görüşəcəyini bildirib.

### Almaniya hərəkətə keçir...

Bu arada Almaniya hökuməti Hörmüz boğazında yaranmış gərgin vəziyyətə müdaxilə etmək üçün öz hərbi dəniz qüvvələrini hərəkətə keçirib. Almaniyanın müdafiə naziri Boris Pistorius “Rheinischen Post” nəşrinə verdiyi müsahibədə Bundestaqın rəsmi icazəsini gözləmədən alman bölmələrinin Aralıq dənizinə göndərildiyini bəyan edib.

Nazirin sözlərinə görə, bu addım mandat təsdiqləndikdən sonra Hörmüz boğazına sürətli yerləşməni təmin etmək və vaxt itkisinin qarşısını almaq məqsədi daşıyır. Almaniya regiona bir minaaxtaran gəmi və təchizat gəmisi yollayıb.

Pistorius vurğulayıb ki, hazırda Aralıq dənizində gözləmə mövqeyində olan bu bölmələr Bundestaqdan mandat alan kimi dərhal missiyanın icrasına başlayacaqlar. Nazir parlamentdən lazımi icazənin çox qısa müddətdə alınacağına əminliyini ifadə edib.

Bu gediş Almaniyanın Yaxın Şərqdəki dəniz təhlükəsizliyi məsələlərində daha aktiv rol almaq istəyinin göstəricisi kimi qiymətləndirilir. Hesab olunur ki, Berlinin bu cür operativ reaksiyası qlobal ticarət yollarının qorunması üçün beynəlxalq koalisiyanın gücləndirilməsinə xidmət edir. Hazırda alman gəmilərinin son təyinat məntəqəsinə doğru hərəkət üçün tam döyüş hazırlığında olduğu bildirilir.

**P.İSMAYILOV**

# Vicdan əzab verərmi?

## Fyodor Dostoyevskinin “Cinayət və cəza” romanı haqqında

*əvvəli ötən saylarımızda*

Buna heç kimin şübhəsi ola bilməz, bu öz yerində. Keçən zaman böyük yazıçının qoyduğu diaqnozların doğruluğunu dönə-dönə təsdiqləyib. Fəqət mənim onun verdiyi reseptə bir balaca etirazım var: doğrudanmı insan haqqın dərgahına mütləq günah səhrasından, şübhə cəhənnəmindən keçib getməlidir? Doğrudanmı göz yaşları günahı yuyub aparır? Doğrudanmı insan öz tanrısıyla rabitə qurmaq üçün hökmən canında günah toxumları bəsləməlidir? Mənə elə gəlir ki, kilsə qurucuları, xristian təliminin alovlu təbliğatçıları öz dinlərinin də, peyğəmbərlərinin də mahiyyətini köklü təhrifə uğradıblar. Mən bunu müsəlman mühitində böyümüş tərəfkeş fərd kimi yox (bir dini o biri dinin meyarlarıyla dəyərləndirməyin qəti əleyhinəyəm), hələ gənclik illərində dörd İncilin dördünü də sevə-sevə oxumuş, Əhdi-cədidi dünyanın ən gözəl, ən mükəmməl kitablarından sayan biri kimi deyirəm. Günah duyğusu insanı Tanrıya yox, İblisə bağlayan duyğudur; o başqa məsələ ki, insan günahlarından arınmaq üçün cismindəki tanrının atributlarından olan vicdanına sığınmalıdır. Ancaq ruhun görən gözü, danışan dili sayılan vicdan nədənsə çox zaman insana əzab çəkdirən, onu daşdan-daşa çırpan, ona qan qusduran zalım, amansız qüvvə kimi qələmə verilir. Doğrusu, vicdanı belə təqdimatla tanıyan kəs vicdansız olmağı bundan üstün tutar.

Raskolnikovun cinayəti qəddar sadizm aktıdır. Yemək-içməkdən tutmuş adam öldürməyə qədər hər növ sadistik akt doyum həddinə çatanda mazoxistik yorğunluqla, peşmanlıqla, vəsvəsəylə, qorxuyla, yuxuyla, xülasə, irili-xırdalı hansısa ölüm aktıyla müşayiət olunur. Məsələn, axşam çox şərab içən adam səhərki xumarlıq (“poxmel”) halında özünü günaha batmış sanır, tez kövrəlir, az qalır tanımadığı şəxslərin də ayağına düşüb olmayan suçuna görə onlardan üzr diləsin. Əyyaşlığa qurşanmanın başlıca səbəbi də elə içən insanın bu əhvaldan, əzabdan qurtulmaq istəyidir. Fəqət bu, heç də o demək deyil ki, səhər-səhər mazoxistik fədakarlıq ovqatına düşmüş bu adam axşam içib şirə dönmüş o adamdan üstün, yaxşı adamdır; yox, o sadəcə bir qütbdən başqasına yuvarlanıb. Raskolnikovun tövbəsi də belə bir ovqatın məhsuludur. Dilə gələn, qatili rahat buraxmayan onun vicdanı, ya allahı deyil, zalımlıq duyğusunun yerini günah duyğusuna verməsi, sadizm aktının mazoxizm aktına transformasiya olunmasıdır. Əlbəttə, Napoleon kimi despotlarda bu balans pozulur, sadizm tərəfi (aqressiv, hiperaktiv yaşamaq ehtirası) qarşı qütbün (mazoxizm, passiv yoxluq istəyi) orqanizmə təsirini minimuma salacaq qədər ağır basır, amma Raskolnikov Napoleon deyil, onun bir qətllik canı var, sonra qırx il tökdüyü bir ovuc qanı yumaqla məşğul olacaq.

***

Raskolnikovun günahı da, tövbəsi də Allahın yox, allahsızlığın işidir, Tanrının bu işlərdən xəbəri yoxdur, hər ikisi İblisin təhrikidir. İki nəfəri qətlə yetirəndən sonra gəncin düşdüyü hallar vicdanın yox, vicdansızlığın onu saldığı vəziyyətdir - vicdana böhtan atmayaq. Rodion Romanoviç Napoleon olmadığını qabaqcadan bilirdi, bununla belə son addımı atmaqdan çəkinmədi, vücudunun dibindəki mübhəm mazoxistik ehtiyac, cəzalanma tələbatı onu özünü hündür, sərt bir sıldırımdan dərin, dibsiz uçuruma atmağa təhrik elədi. Paradoksal burasıdır ki, zədəsi nə qədər ağır olsa, onun mənəvi həyata qayıtmaq ehtimalı bir o qədər çoxdur.

Bəs ağıl, bəs ruh? Ağıl, ruh bu işlərdə iştirak eləmirmi? Raskolnikov, əlbəttə, ağıllı, savadlı oğlandır, tozunu alan olsa, parlaq ruhu da var. Canına müsəllət olmuş bədöy cinin köpü alınandan sonra Allahın bir nüsxəsitək o canı kirayələmiş ruhun deməyə bəlkə də sözü olacaq - yazıçı epiloqda Raskolnikovun ehyasına, dirilişinə dönə-dönə işarə vurur. Onun çəkdiklərini qaldırmağa ağılın gücü yetməz, onun ağlından iti ağıl nə qədər istəsən başqalarında da var - məgər Dostoyevski özü rus ədibləri arasında ən ağıllısıydımı? Həm də ağıl cürbəcür olur: məsələn, Razumixinin ağlı xeyirin qulluğunda duran ağıldır; müstəntiq Porfirinin ağlı şübhəçi, analitik ağıl, necə deyərlər, alim ağlıdır; Lujinin ağlı isə özünün bapbalaca şeytanına - dar, dayaz eqosuna xidmət göstərir. Svidriqaylov da ağıllı adamdır, onun da ağlı Raskolnikovun ağlı kimi İblisin sərəncamındadır, ona görə hər ikisi sonda intihara gedir: Svidriqaylov qoymağa yer tapmadığı canından, Raskolnikov şərə mübtəla olmuş ağlından keçir. Biz romanın qəhrəmanından o vaxt ayrılırıq ki, o, mühüm bir keçidin astanasındadır, dirilmə, doğulma ərəfəsindədir, artıq onu ağlı yox, közərməyə başlayan qəlbi hərləyir:

“Elə həmin günün axşamı kazarmanın qapıları bağlanandan sonra Raskolnikov taxta uzanıb Sonya haqda düşünürdü. Ona elə gəlirdi ki, bu gün onunla düşmənçilik aparan dustaqlar belə ona bir ayrı nəzərlə baxırlar. O hətta özü onları söhbətə tutdu, onlar da ona mehriban cavab verdilər. Məgər elə belə də olmalı deyildimi, indi hər şey kökündən dəyişməli deyildimi?

O, Sonyanı düşünürdü: həmişə qıza əzab vermişdi, onun qəlbini parçalamışdı. Sonyanın solğun arıq üzünü xəyalına gətirdi, ancaq bu xatirələr indi ona əzab vermirdi: bilirdi ki, Sonyanın çəkdiyi bütün əzabların əvəzini hüdudsuz bir məhəbbətlə ödəyəcək.

Bir də axı keçmişin əzabları, bütün bu ağrı-acılar nə olan şeydi! İndi bütün bunlar - törətdiyi cinayət də, kəsilən hökm də, sürgün də ilk coşqunluq dəmində ona bir növ kənar, qəribə hallar kimi görünürdü, heç elə bil bütün bunlar onun başına gəlməmişdi. Həmin axşam o heç bir şey haqqında uzun-uzadı düşünə bilmədi, heç bir şeyin üstündə fikrini cəmləyə bilmədi; bəli, o indi şüurlu surətdə hansısa məsələni çözmək iqtidarında deyildi, indi o yalnız hissinə dalmışdı. Dialektikanın yerini həyat tutmuşdu, şüurda da tamam başqa bir şey yetişməliydi...”

Yox, Raskolnikovun yükünü ağıl-filan çəkə bilməz. Bundan ötrü ürək, könül işə keçməli, onun vücudunun səltənətində vicdan, Allah hakimiyyətə gəlməli, o səltənətdə xaos, anarxiya, “besporyadok” bitməlidir. Yalnız bundan sonra onun dirilişi, qurtuluşu başlana bilər, yalnız vicdan onu çəkdiyi əzablardan, gördüyü vahiməli yuxulardan, qorxaq aqressiyadan, aqressiv qorxulardan qurtara bilər. Vicdan insanı miskin, gözükölgəli duruma salmaz, kişini Tanrı kimi məğrur, gözütox göstərər. Çox güman, Raskolnikovun da başına belə gözəl bir iş gələcək, çox güman, Sibirin bakirə təbiətinin, başının altındakı İncilin, qəlbinin keşiyində durmuş Sonyanın hesabına tezliklə onun da ruhu dünyaya, insanlara açılacaq. Bunca sarsıntıdan sonra Raskolnikovdan nə desən gözləmək olar: artıq ondan knyaz Mışkin də törəyər, lap elə yeni peyğəmbər, yeni Məsih də çıxar - yanında Maqdalı Məryəmi də var...



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# İtirilmiş müstəqillik, sarsılmayan ruh!



## 28 Aprel tarixin sərt sınağı idi...

Bu gün 28 Aprel işğalından 106 il ötür. 1920-ci ilin bu günündə Azərbaycan tarixində yalnız siyasi dönüş nöqtəsi yaşanmadı. Eyni zamanda, milli yaddaşda dərin iz buraxmış, azadlıqla bağlı ümidlərin qəfil qırıldığı, dövlət müstəqilliyinin zor gücü ilə sona çatdırıldığı, lakin xalqın mübarizə ruhunun sönmədiyini göstərən mürəkkəb və çoxqatlı bir hadisə kimi yadda qalıb.

Həmin gün cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) regionda baş verən geosiyasi dəyişikliklərin, böyük dövlətlərin maraq toqquşmalarının və daxili çətinliklərin təsiri altında, bolşevik Rusiyasının XI Qızıl Ordusunun Bakıya daxil olması ilə süquta uğradı. Bu isə yalnız hakimiyyətin dəyişməsi deyil, həm də ölkənin siyasi kursunun köklü şəkildə transformasiyası demək idi.

AXC taleyinin faciəli şəkildə başa çatmasının bir səbəbi də o dövrlər Azərbaycanda müxtəlif təşkilatlar, partiyalarda təmsil olunan soydaşlarımız arasında ciddi fikir ayrılıqları idi. 106 il qabaq Azərbaycanda hakimiyyətin bolşeviklərə təslim edilib-edilməməsi ilə bağlı parlamentdəki gərgin dartışmalar zamanı Səmədağa Ağamalıoğlu heç nə olmayıbmış kimi "O olmasın, bu olsun" demişdi. Moskva o zaman içimizdəki gücləri birbirinə qarşı qoymaqla istəyinə çatdı.

## 28 Aprel fəlakəti baş verməyə bilərdi?

23 ayda Cümhuriyyətin içində ayrı-ayrı güclər tərəfindən çoxlu iğtişaşlar törədildi. Təbii ki, bu, hökumətin qüvvəsinin parçalanmasına, bir neçə istiqamətdə mübarizə aparmasına səbəb olurdu. Müsavatçılar müxtəlif siyasi güclərlə əməkdaşlığa getdilər. Bir neçə dəfə kabinet dəyişikliyi baş verdi. Belə bir durumda ölkədə bolşevizm təhlükəsi gündən-günə artırdı. Bolşeviklərin uydurduğu ideyalar fəhlə və kəndliləri şirnikləndirirdi. "Fabrik-zavod fəhlələrə, torpaq kəndlilərə" şüarı cəlbedici səsləndiyi dərəcədə milli dövlətimizi yıxacaq güc halına gəlirdi. Azərbaycanın içindəki müxtəlif əqidəli bəzi şəxslər son məqamda satqınlıq etdilər.

Birinci Dünya müharibəsindən məğlubiyyətlə çıxan, ötən yüz ilin əvvəllərindən bəri dəfələrlə inqilab edərək əldən düşən, vətəndaş müharibəsinin birtəhər səngiməyə başladığı Rusiya Bakı neftinə, ümumiyyətlə, Azərbaycan kimi zəngin bir ölkəyə yiyələnməyin önəmini gözəl başa düşürdü. Bu baxımdan da Moskva Azərbaycanda tərəfdarlarını yarada bilmişdi. Bu şəxslər o dönəmin inqilab havasının təsiri ilə fanatikq dərəcəsinə gəlmişdilər. Çox az sonra, 1930-cu illərdə bu şəxslərin demək olar, hamısını sovet ideologiyası məhv etdi.



Aprel işğalı ilə əlaqədar Səməd bəy Mehmandarov vəzifəsindən istefa verdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələr onu Gəncə üsyanının təşkilində günahkar bilərək, 1920-ci il iyunun 4-də Əliağa Şıxlinski ilə birlikdə həbs etdilər.

## Fəlakət yeni faciəli hallar yaratdı...

1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdilər, 1937-ci ildə isə repressiyalar törədildi. Xalqımızın ruhu ardıcıl olaraq sarsıdıldı. Onun məhv edilməsi üçün bəşər tarixində misli görünməyən yırtıcı üsullara əl atıldı. Təəssüf ki, hələ də soydaşlarımız 28 Aprel fəlakətinin yaratdığı fəsadları, Demokratik Cümhuriyyətin çöküşünü tam anlamayıblar.

28 Aprel fəlakətimiz birdən-birə yaranmadı. Bu fəlakət hələ çoxdan, əslində türkü sevməyənlərin xəbis niyyətlərində yaşayırdı.

Belə bir gərgin zamanda Cümhuriyyəti nəinki elan etmək, üstəlik, onu 23 ay yaşatmaq hünər idi. Ancaq Müsavat hökuməti təəssüf ki, gördüyü böyük işin dəyərini, önəmini kütlələrə istənilən səviyyədə başa sala bilmədi.

Bolşevik Rusiyası Bakının üzərinə 100 min nəfərlik təpədən-dırnağa qədər silahlanmış ordu ilə gəlirdi. Həqiqətən də dövlətimizin belə hərbi qüvvənin qarşısında dayanmağa gücü yox idi.

Elə məqamlar olur ki, bir toplumun üzləşdiyi itkilər, məğlubiyyətlər və faciələr onun ruhunu sarsıtmaq əvəzinə, əksinə, onu daha da sərtləşdirir, iradəsini gücləndirir və gələcəyə daha ayıq, daha düşünülmüş addımlarla irəliləməsinə səbəb olur. Çünki bu cür təcrübələr insanlara yalnız ağrı deyil, həm də dərs verir.

## Parlament və bütün siyasi partiyalar buraxıldı

"11-ci Qırmızı ordu" aprelin 28-də Bakıya daxil olduqdan sonra Parlament və bütün siyasi partiyalar buraxıldı.

Azərbaycan Cümhuriyyəti süqut edən kimi 1920-ci il aprelin 28-də Türk Aktyorları İttifaqı təcili iclas çağıraraq, uzun illər uğurlu fəaliyyət göstərən truppa müdiriyyətinin guya "mövqeyi-etibarını itirdiyindən" ləğv edilməsi və ittifaqın müvəqqəti olaraq onun yerinə keçməsi barədə qərar qəbul etdi. 1920-ci ilin əvvəllərində regionda vəziyyətin mürəkkəbləşməsi və Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı nəticəsində ölkədə xalq maarifinin inkişafı sahəsində nəzərdə tutulan çoxsaylı tədbirlərin həyata keçirilməsi yarımçıq qaldı.

Aprel işğalından sonra Jurnalistlər və ədiblər ittifaqı fəaliyyətini dayandırıldı.

Aprel işğalından sonra Kəndli ittifaqı fəaliyyətini dayandırmağa məcbur oldu.

Kustar Neftçıxaranlar Birləşmiş İttifaqı Aprel işğalından sonra fəaliyyətini dayandırdı.

Aprel işğalı və AXC-nin süqutundan sonra Qarabağ general-qubernatorluğunun fəaliyyətinə də son qoyuldu.

Aprel işğalından sonra AXC Hökumətinin bütün qanun və qərarlarını ləğv edən Sovet hakimiyyətinin məhkəmə orqanları Cümhuriyyət Parlamentinin 1920-ci il fevralın 9-da qəbul etdiyi "Amnistiya haqqında" Qanunu əsas götürərək, Azərbaycanda türk-müsəlman əhaliyə qarşı ermənilər tərəfindən həyata keçirilən soyqırımlarla ilə əlaqədar cinayət işinə xitam verdi.

## Azadlıq ideyası bəzən məğlubiyyətlərdən keçərək möhkəmlənir

Xalq onda var olur ki, o, fəlakətindən güc almağı bacarır, sarsılmır. Fəlakətindən güc almayan xalq isə özünün yeni-yeni fəlakətlərini yaradır. Bununla belə, 28 aprel tarixi yalnız itirilmiş müstəqilliyin simvolu kimi deyil, həm də gələcək nəsillər üçün dərs, kimliyin qorunmasının əhəmiyyəti və dövlətçilik ideyasının sarsılmazlığı barədə düşünməyə vadar edən bir mərhələ kimi dəyərləndirili. Tarix göstərir ki, azadlıq ideyası bəzən məğlubiyyətlərdən keçərək daha da möhkəmlənir və xalqın yaddaşında yenidən dirçəlmək üçün yaşayır.

***Yeganə BAYRAMOVA***

# Təhlükəsizlik mədəniyyəti...

## Müasir dünyada əmək təhlükəsizliyinin əhəmiyyəti artır

*Yeganə BAYRAMOVA*

Müasir dünyada sürətli sənayeləşmə və texnoloji inkişaf fonunda iş mühitində risklərin artdığı bir reallıqdır. Dünya təcrübəsindən bəllidir ki, inkişaf etmiş bütün ölkələrdə vətəndaşların işçi olaraq hüquqlarının qorunması mühüm amillərdən sayılır. Əməyin mühafizəsi artıq sadəcə qaydalar toplusu deyil, strateji prioritet kimi qəbul edilir. Bu sahədə atılan hər bir addım insan həyatını xilas edə biləcək gücə malikdir.

Məlumdur ki, insanların əməyin mühafizəsi, onların sağlam və təhlükəsiz iş şəraitində işləməsi sosial siyasətin əsas prioritetlərindən biridir. İnsan amilinin uca tutulduğu ölkələrdə bu prioritetlərin labüdlüyü çoxdan təsdiqlənib. Təhlükəsiz iş şəraiti hər bir insanın fundamental hüququdur və işə gedən hər kəsin günün sonunda sağ-salamat evinə qayıtması sadəcə arzu deyil, təmin olunmalı olan bir reallıqdır. Buna görə də həm işəgötürənlər, həm də işçilər bu məsuliyyəti birlikdə bölüşməli və təhlükəsizlik mədəniyyətini gündəlik həyatın ayrılmaz hissəsinə çevirməlidirlər.

**Əməyin mühafizəsi nədir?**

Əməyin mühafizəsi dedikdə istehsal prosesində işçilərin təhlükəsizliyini təmin edən iqtisadi, təşkilati, texniki və hüquqi tədbirlərin məcmusu başa düşülür. Müasir dövrdə insanların əmək fəaliyyəti ən mürəkkəb istehsal alət və vasitələrdən istifadə ilə əlaqədardır. Bu zaman bədbəxt hadisələrə və digər ağır nəticələrə yol verməmək üçün işçilər təhlükəsizlik texnikası ilə tanış edilməli, müasir şəraitinə uyğun əmək təhlükəsizliyi qaydaları yaradılmalı, əməyin mühafizəsi üzrə münasibətləri nizama salan yeni normalar işlənib hazırlanmalıdır. İstehsalatda əməyin mühafizəsi müəssisə rəhbərinə və digər vəzifəli şəxslərə həvalə olunur. Onlar baş verən bütün pozuntulara görə məsuliyyət daşıyırlar.

**Dünyanın 100-dən çox ölkəsində...**

Aprelin 28-i Ümumdünya Əməyin Mühafizəsi Günüdür. Beynəlxalq Əmək Təşkilatının (BƏT) təşəbbüsü ilə 2003-cü ildən elan olunan bu gün hazırda dünyanın yüzdən çox ölkəsində qeyd edilir. Ümumdünya Əməyin Mühafizəsi Gününün təsis olunmasında məqsəd cəmiyyətin diqqətini işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması, istehsalat qəzalarının qarşısının alınması üçün profilaktik tədbirlərin görülməsi məsələlərinə cəlb etməkdir.



**Dünyada hər il 2,34 milyon insan...**

BƏT-in məlumatına görə, hər il dünyada istehsalat sahəsində 339 milyon bədbəxt hadisə baş verir. Hər il istehsalatla əlaqəli bədbəxt hadisələr, peşə xəstəlikləri nəticəsində isə təxminən 2,34 milyon nəfər həlak olur. Bu, hər gün orta hesabla 6 min insan deməkdir. Hər il 160 milyondan çox insan müxtəlif dərəcəli bədən xəsarəti alır və ya peşə xəstəliklərinə tutulur. İstehsalat qəzaları nəticəsində dünya üzrə ümumi daxili məhsulun 4 faizinin və ya 2,8 trilyon ABŞ dollarının itirilməsi ilə nəticələnir.

Bütün bunlar əməyin mühafizəsini aktuallaşdıran problemlər kimi çıxış edir. BƏT-in qəbul etdiyi və dövlətlərin qoşulduğu konvensiyaların böyük əksəriyyəti məhz əməyin təhlükəsizliyi, layiqli əməyin təmin olunması məsələlərini əhatə edir.

Əməyin mühafizəsi ölkəmizdə də sosial siyasətin əsas məqsədlərindən biridir. Azərbaycan 1992-ci ildən bəri üzvü olduğu BƏT- in bu sahədə olan bütün konvensiyalarına qoşulub. Daha dəqiq ifadə etsək, ölkəmiz tərəfindən BƏT-in əsas işçi hüquqları ilə bağlı 58 konvensiyası, o cümlədən əməyin mühafizəsi və təhlükəsizliyinə dair 21 konvensiyası ratifikasiya olunub. 2004-cü ildən etibarən isə Azərbaycanda Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd olunur.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5198**
**Sifariş: 547**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova